# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan neftdən asılılığını necə azaldır?



9

№ 134 (7302)

SƏS

31 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

# Uğurlu inkişafın yeni ünvanı - Laçın!



2

**Prezident İlham Əliyev: "Dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir"**

# Turana gedən yol

*Tokayev və Ərdoğan: "Bizi təkcə dostluq bağlamır"*



3

### Naxçıvan yeni inkişaf dövründə



4

### Solovyov, sən hələ də Şuşanı xəyal sanırsan?



5

### İnsan alveri: satan, satılan, alan



15

### Bakının mərkəzində bərbad yeraltı keçidlər



6

### Meşələri kim yandırır? Qorxunc qlobal plan



10

# Uğurlu inkişafın yeni ünvanı - Laçın!

## Prezident İlham Əliyev: "Dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir"

***Bölgələrimizin sosial-iqtisadi inkişafı artıq yeni mərhələyə daxil olub. Dövlətin güclü dəstəyi, uğurlu proqramların icrası nəticəsində bu gün Azərbaycanın bölgələri inkişaf və tərəqqi dövrünü yaşayır. Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini təmin etməkdədir.***

Bu gün sürətlə inkişaf yoluna qədəm qoyan bölgələrimizdən biri də gözəl Laçınımızdır.

1 dekabr 2020-ci ildə Laçın işğaldan azad olundu və öz haqqına qovuşdu. 30 ilə yaxın Ermənistan tərəfindən işğal olunan hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Eləcə də düşmən işğalından azad olunan Laçınımızda. Etiraf etməliyik ki, son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən dörd il yarım ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"- deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır", - deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir". Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin 1 dekabr tarixində xalqa müraciətində isə Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdir: "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq". Döyüş meydanında əldə edilmiş parlaq qələbənin məntiqi olaraq Ağdam, Kəlbəcər və Laçın Azərbaycana qaytarıldı.

Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin 2020-ci ilin noyabrın 10-da imzaladıqları birgə Bəyanata uyğun olaraq, Ermənistan tərəfindən ərazilərin boşaldılması qrafik üzrə həyata keçirilib. Həmin qrafikə əsasən, dekabrın 1-də Laçın rayonu da erməni işğalından azad edildi.



### "BİZİM ÖLKƏMİZ ÜÇÜN YENİ DÖVR BAŞLAYIR"

Azərbaycanın əzəli, tarixi torpaqları işğaldan azad olunub. "Bizim ölkəmiz üçün yeni dövr başlayır", deyən dövlət başçısı artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.



Laçının Zabux kəndi də bu sevinci yaşadı. İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailə Zabuxa köç etdi. Bakıdan, Lökbatandan Zabuxa yol alan karvan məcburi köçkünləri neçə ilin həsrətindən sonra el-obası ilə görüşdülər. Qeyd edək ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Əlbəttə ki, Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsidir. İllər öncə yurd-yuvasından didərgin düşənlər bu gün sönmüş çıraqlarını yandırıb, yeni həyata başlayırlar. Bu həyat acı keçmişi arxada qoyub xoşbəxt bir dünyaya səsləyir insanları. Köç karvanları nisgilli, kədərli bir ömür yaşamış insanları əzəli torpaqlarına çatdırır. Bu karvanlar bizi Zəngilan, Füzuli kimi Laçına aparır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

### ƏZABLI İLLƏRDƏN SONRA RAHAT YAŞAYIŞ

Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız".

Artıq Laçın yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Turana gedən yol

## Tokayev və Ərdoğan: "Bizi təkcə dostluq bağlamır"



İyulun 29-da Qazaxıstan prezidentləri Kasım-Jomart Tokayev və Türkiyə prezidentləri Rəcəb Tayyib Ərdoğan Ankarada rəsmi danışıqlar aparıb, iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələri möhkəmləndirilib. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSƏŞ) beşinci iclası zamanı kənd təsərrüfatı, müdafiə, enerji, nəqliyyat, logistika, mədəni-humanitar sahələri əhatə edən mühüm sazişlər imzalanıb. Türkiyə Prezidentinin qeyd etdiyi kimi, bundan sonra da səylər ikitərəfli ticarət dövriyyəsinin 15 milyard dollara çatmasına yönəldiləcək. İyulun 28-də axşam Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Türkiyəyə rəsmi səfərə gəlib. Bu görüşün əhəmiyyəti Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın Qazaxıstan liderinin gəldiyi təyyarənin pilləkənlərində şəxsən görünməsi ilə vurğulanıb. Türkiyə prezidentinin nadir hallarda xarici qonaqlara təqdim etdiyi belə müstəsna şərəf iki ölkə arasında xüsusi dostluq əlaqələrinə dəlalət edir: Qazaxıstan Türkiyə üçün mühüm müttəfiqdir.

Tokayev öz növbəsində Ərdoğana qonaqpərvərliyinə görə təşəkkür edərək vurğulayıb: "Sizin xüsusi olaraq hava limanına görüş üçün gəlməyiniz mənim üçün böyük şərəfdir. Ölkələrimiz arasında heç bir ziddiyyət yoxdur. Bizi təkcə dostluq deyil, həm də səmərəli əməkdaşlıq bağlayır. Sabah bizi mühüm danışıqlar gözləyir". Orada, hava limanında dövlət başçılarının qısa söhbəti gələcək danışıqlara rəvac verib. Daha sonra prezidentlər Esenboğa hava limanından bir avtomobillə Ankaraya yola düşüblər.

Tokayev və onu müşayiət edən Qazaxıstan hökumətinin nümayəndələri Türkiyə tarixinə hörmət əlaməti olaraq müasir Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət ediblər. Qazaxıstan Prezidenti "xalqlar arasında qardaşlıq əlaqələrinin daha da möhkəmlənəcəyinə" əminliyini ifadə edib, Türkiyəyə rifah və firavanlıq arzulayıb.

Səfərin mərkəzi hadisəsi iki ölkə liderləri arasında danışıqlar, investorlarla görüş, Qazaxıstan və Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası olub. Tokayev, o cümlədən, Qazaxıstanda fəaliyyət göstərən böyük türk bizneslərinin nümayəndələri ilə tibb, logistika, taxıl emalı sahəsində layihələri müzakirə edib. Belə ki, Astanada buğda və noxudun dərin emalı zavodu tikmək niyyətində olan Türkiyənin Tiryaki Holding şirkəti ilə 160 milyard tenge (295 milyon dollar) dəyərində investisiyalar haqqında müqavilə imzalanıb. Bu barədə kənd təsərrüfatı naziri Aydarbek Saparov məlumat verib.

Türküstan, Astana və Petropavlovskda multidissiplinar xəstəxanaların tikintisinə və istismarına, həmçinin Aktauda multimodal tranzit qovşağının yaradılmasına sərmayə qoyan Türkiyənin YDA Holding qrupunun planlarına xüsusi diqqət yetirilib.

Tokayev "S Sistem Lojistik" şirkətinin Direktorlar Şurasının sədri Huseyin Barlin ilə görüşdə logistika sektorunun inkişaf perspektivlərini, o cümlədən Aktobe hava limanında logistika mərkəzinin yaradılmasını və şirkətin Qazaxıstanın digər iri şəhərlərində iştirakının genişləndirilməsini müzakirə edib. Türkiyə biznesi Qazaxıstanda perspektiv görür və Qazaxıstan iqtisadiyyatının gələcəyinə inanır. Məsələn, Forbes.kz saytına müsahibəsində CoreX Holding-in təsisçisi və baş direktoru Robert Yüksel Yıldırım vurğulayıb ki, son iki onillikdə Qazaxıstan xarici investorlar üçün əlverişli iqlim yaratmaq üçün böyük işlər görüb: "Ölkənin coğrafi mövqeyi, zəngin resursları və inkişaf etmiş infrastrukturu onu sənaye sərmayələri üçün cəlbedici edir. Biz burada böyük potensiala malik olduğumuzu görürük".




Logistika sahəsində əməkdaşlığın genişləndirilməsinə böyük diqqət yetirilir. Qazaxıstan Çini Xəzər dənizi və Türkiyə vasitəsilə Avropa ilə birləşdirən Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun formalaşmasında əsas rol oynayır. Türkiyə şirkətləri liman və yol infrastrukturunun modernləşdirilməsində iştirak edərək bu marşrutun inkişafında fəal iştirak edirlər. Bu, marşrutun cəlbediciliyinin və səmərəliliyinin artmasına kömək edir. Prezident Tokayevin dəstəyi Türkiyəyə Avrasiyanın mühüm tranzit mərkəzi kimi özünü göstərməyə imkan verdi.

Sanksiya təzyiqinin artması və Qazaxıstan neftinin Xəzər Boru Kəməri Konsorsiumu (CPC) vasitəsilə ixracının bu yaxınlarda dayandırılması fonunda enerji sahəsində əməkdaşlıq məsələsi ayrıca müzakirə edilib. Qazaxıstan enerji təchizatını diversifikasiya etmək yollarını fəal şəkildə axtarır. Prezident Tokayevin Ankaradakı danışıqları zamanı Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri və digər oxşar layihələrlə tədarükün artırılması müzakirə mövzusu olub.

Bu səfərdən əvvəl Türkiyənin energetika naziri Alparslan Bayraktar "KazMunayQaz"ın rəhbəri Asxat Xasenov ilə görüşüb. Danışıqlar zamanı Türkiyənin iqtisadi tərəfdaş kimi xüsusi əhəmiyyəti vurğulanıb. "KazMunayQaz" üçün prioritet Qazaxıstanın enerji təhlükəsizliyinin gücləndirilməsi üzrə uzunmüddətli strategiyanın bir hissəsi olan Türkiyənin enerji sektoru, o cümlədən dövlətə məxsus Türkiyə Neft Şirkəti ilə əməkdaşlığı genişləndirməkdir.

Eyni zamanda, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq inkişaf edir. Türkiyədə keçirilən "IDEF2025" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi Türkiyənin hərbi sənaye kompleksinin qabaqcıl inkişaflarını əyani şəkildə nümayiş etdirərək, bir çox ölkələrin, o cümlədən Qazaxıstanın qanuni marağına səbəb olub. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi ilə təsdiqlənən Türkiyə hərbi texnologiyalarının uğuru tərəfdaş ölkələri fəal əməkdaşlığa sövq edir. Xüsusilə Qazaxıstan Türkiyənin pilotsuz təyyarələrinə ciddi maraq göstərir. Əlamətdar hadisə ötən il Türkiyənin "Baykar" istehsalçısı ilə Qazaxıstanda Qazaxıstan müdafiə-sənaye kompleksinin inkişafı üçün yeni imkanlar verən istehsal sahəsinin açılmasına dair razılaşma oldu. Bundan əlavə, Türkiyə Qazaxıstanın müdafiəsi və təhlükəsizliyinin gücləndirilməsinə töhfə verən peşəkar hərbi təhsil, mütəxəssislərin hazırlanması, məsləhət dəstəyi və birgə təlimlər də daxil olmaqla, təhlükəsizlik sahəsində əməkdaşlığın digər formalarını fəal şəkildə təklif edir.

### İnnovasiyalar, təhsil, mədəniyyət

Səfərdə humanitar və texnoloji əməkdaşlığın geniş spektri də öz əksini tapıb. Qazaxıstan və Türkiyə birgə İT təşəbbüsləri inkişaf etdirmək niyyətindədirlər. Prezident Tokayev ölkənin rəqəmsal nailiyyətlərini təqdim edib və türk şirkətlərini yüksək texnologiyalar sahəsində tərəfdaşlığa dəvət edib. Təhsilə xüsusi diqqət yetirilib. Türkiyədə 12 mindən çox qazaxıstanlı təhsil alır, Qazaxıstanda isə 300-ə yaxın türk tələbə var. Yaxın vaxtlarda Astana və Almatıda Maarif Fondunun məktəbləri, Qaziantep vilayətində isə Tokayevin təşəbbüsü ilə zəlzələdən zərər çəkmiş uşaqlar üçün yeni məktəb açılacaq. Qazaxıstan da Türkiyə vətəndaşları üçün 90 günlük vizasız rejim tətbiq edəcək.

### Qlobal çağırışlar və diplomatik həmrəylik

Prezidentlər mövcud qlobal çağırışlar ətrafında fikir mübadiləsi aparıblar. Qazaxıstan və Türkiyə münaqişələrin diplomatiya əsasında sülh yolu ilə həllinin tərəfdarıdır. Qazaxıstan rəhbəri Türkiyənin Rusiya-Ukrayna münaqişəsinin həllində vasitəçilik səylərini xüsusi qeyd edib və BMT-də islahatları dəstəkləyib. "Astana və Ankara qlobal davamlı inkişaf və təhlükəsizliklə bağlı ortaq mövqelərə sadiqdirlər. Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli fəaliyyətlərimizi xüsusilə qeyd etmək istərdim", - Kasım-Jomart Tokayev vurğulayıb.

### Dövlət Nişanı ordeni - tarixi dostluğun simvolu

Səfərə Türkiyənin ən yüksək dövlət mükafatı olan Dövlət Nişanı ordeninin Kasım-Jomart Tokayevə təqdim olunması xüsusi əhəmiyyət verib. Dövlət başçısı vurğulayıb ki, o, əvvəllər hər hansı mükafatdan imtina edib, lakin bu tanınmanın xüsusi, tarixi əhəmiyyəti var. "Mən bu yüksək mükafatı Türkiyə tərəfinin bütün Qazaxıstan xalqına dərin ehtiram əlaməti kimi qiymətləndirirəm. Bu, kökləri, dini və mentaliteti ortaq olan ölkələrimiz arasında sarsılmaz dostluğun rəmzidir", - prezident deyib. O, Rəcəb Tayyib Ərdoğanı regional sabitlik və inkişafa mühüm töhfə vermiş nüfuzlu dünya lideri adlandırıb. "Biz heç vaxt unutmayacağıq ki, Türkiyə Qazaxıstanın müstəqilliyini tanıyan ilk ölkə olub. Bu, xalqımızın yaddaşında əbədi qalacaq tarixi faktdır".

### Gələcəyə fokuslanmış davamlı birlik

Səfər zamanı imzalanmış 18 dövlətlərarası və idarələrarası saziş, eləcə də iki liderin Birgə Bəyannaməsi strateji tərəfdaşlığı yeni mərhələyə çıxarmaq üçün ortaq niyyəti əks etdirir. Qazaxıstan və Türkiyə qardaşlıq, tarix və qarşılıqlı maraqların irəliləyiş üçün etibarlı platforma rolunu oynadığı balanslaşdırılmış, praqmatik və çoxsahəli əməkdaşlıq modeli nümayiş etdirir. Astana və Ankara təkcə ikitərəfli əlaqələri deyil, həm də türk dünyası daxilində və daha geniş mənada Avrasiya məkanında sabitlik və qarşılıqlı əlaqə oxu yaradırlar. Bu gün iki ölkə arasında strateji dialoq sadəcə siyasət deyil, gələcəyin memarlığının birgə qurulmasıdır.

***V.VƏLİYEV***

# Naxçıvan yeni inkişaf dövründə

## Dövlət başçısının Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət proqramı"nda dəyişiklik edilib



Bu gün dövlət başçısının müəyyənləşdirdiyi inkişaf strategiyasına əsaslanan kompleks quruculuq tədbirləri, həyata keçirilən çoxşaxəli islahatlar Naxçıvandan da yan ötməyib. Naxçıvan bu gün özünün tərəqqi dövrünü yaşayır. Qədim dövlətçilik tarixi olan Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl respublikalardan biri olan Azərbaycanda böyük sosial quruculuq işləri aparılır və bu inkişaf Naxçıvanda da özünü büruzə verib. Azərbaycan müstəqillik qazandıqdan sonrakı mərhələdə, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqilliyimizin banisi Heydər Əliyevin inkişaf strategiyası Naxçıvanın da sürətli inkişafına əhəmiyyətli təsir göstərirdi. Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyəti dövründə Ermənistan tərəfindən blokada şəraitində olan regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və tərəqqisi üçün əhəmiyyətli tədbirlər görülmüş, aqrar islahatlar reallaşdırılmış, infrastrukturun inkişafı istiqamətində mühüm işlər həyata keçirilmişdir. Məhz Ulu Öndərin siyasəti sayəsində Naxçıvanın inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulmuş, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılmışdır.

### SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR DÖVLƏT PROQRAMI

Məlumdur ki: "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Naxçıvanın iqtisadi inkişafının davamlılığının təmin edilməsində, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasında, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsində mühüm rol oynayır. Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir. Dövlət Proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir. Dövlət Proqramının əsas hədəf göstəricilərinə əsasən, dayanıqlı inkişaf təmin olunur, məşğulluq imkanları artırılır, əhalinin həyat səviyyəsinin yüksəldilir.

Prezident İlham Əliyev 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət proqramı"nda dəyişiklik edib. Sərəncama əsasən, Naxçıvanda gömrük sərhəd buraxılış məntəqələrində keçidin sürətləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində iş aparılması üzrə əsas icraçıların siyahısına Dövlət Gömrük Komitəsi ilə yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) və "Azərbaycan Dəmir Yolları" QSC, müxtəlif turizm növlərinin (qış, kənd, eko və s.) inkişaf etdirilməsi və turizm atlasının hazırlanması üzrə digər icraçıların siyahısına Dövlət Turizm Agentliyi ilə yanaşı, Elm və Təhsil Nazirliyi, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi üzrə əsas icraçıların siyahısına muxtar respublikanın Nazirlər Kabineti ilə yanaşı AAYDA daxil edilib.

### "BÜTÜN ŞƏHƏRLƏRİMİZDƏ GEDƏN QURUCULUQ, ABADLIQ İŞLƏRİ GÖSTƏRİR Kİ, BİZ DÜZGÜN YOLDAYIQ"

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsində ölkəmizin qeyri-neft sənayesi də dinamik inkişaf edir, qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələri yaradılır. Hazırda bu istiqamətdə aparılan işlər ölkənin bütün regionlarında uğurla davam etdirilir. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Dövlət proqramlarının icrası istiqamətində görülən işlər nəticəsində ölkənin hər yerində genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Cənab İlham Əliyevin vurğuladığı kimi əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik: "Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq, abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq". Bütün bunlar ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində mümkün olub.

### İNKİŞAF DÖVRÜNDƏ ƏLDƏ EDİLƏN NAİLİYYƏTLƏR

Müasir dövrümüzdə Naxçıvanda bütün sosial, iqtisadi, infrastruktur və hərbi məsələlər yüksək səviyyədə öz həllini tapır. Naxçıvan Muxtar Respublikasının çoxşaxəli iqtisadiyyatının formalaşdırılması və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilib. Tarixi İpək Yolunun üstündə yerləşən, geostrateji əhəmiyyətə malik, türk dünyasının birliyi və həmrəyliyində oynadığı rolu ilə Naxçıvan fərqlənib. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnib. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir.

Dövlət Proqramında qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılıb, investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması üçün son 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi çərçivəsində idxal olunan 77,9 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq edilib. İxracın stimullaşdırılması məqsədilə müxtəlif ölkələrdə keçirilmiş tədbirlərdə yerli sahibkarlıq subyektinin dövlət dəstəyi ilə iştirakı təmin edilib və istehsal olunan məhsullar nümayiş etdirilib.

Ötən dövrdə torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tutumu 100 milyon kubmetr olan Heydər Əliyev su anbarı istifadəyə verilib. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası, o cümlədən 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 4,5 meqavat gücündə Heydər Əliyev su anbarı üzərində su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 20 meqavat gücündə "Biləv" su elektrik stansiyası, Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyaları, Babək rayonunun Xalxal kəndi ərazisində 22 meqavat gücündə Naxçıvan günəş elektrik stansiyası, Kəngərli rayonunda 5 meqavat gücündə, Şərur rayonunda 8 meqavat gücündə günəş elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası və 0,3 meqavat gücündə Culfa külək elektrik stansiyası istifadəyə verilib. Təbii qazla təchizat tam olaraq başa çatdırılıb, 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli və 82,2 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərləri tikilib istifadəyə verilib.

### YENİ ÇAĞIRIŞLAR - ÇEVİK VƏ SƏMƏRƏLİ YANAŞMALAR

Naxçıvan şəhərinin və onun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini içməli su və kanalizasiya xidməti ilə təmin etmək üçün gün ərzində 40 min kubmetr sutəmizləmə və 32 min kubmetr tullantı sutəmizləmə gücünə malik olan qurğular və ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib. Naxçıvan şəhərində, Əliabad qəsəbəsində, Tumbul, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində su xətti və kanalizasiya şəbəkəsi quraşdırılıb. Rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində 1685,7 kilometr fiber-optik xətt çəkilib. Naxçıvan Hava Limanı regionun aviasiya nəqliyyat əlaqəsi üçün yeganə vasitə olub və 2004-cü ildən Beynəlxalq Hava Limanı statusu qazanıbdır. Ötən müddətdə Ağbulaq istirahət və xizək mərkəzi, Duzdağ fizioterapiya mərkəzi və digər turizm obyektləri fəaliyyətə başlamış, regionda fəaliyyət göstərən mehmanxanaların sayı artmışdır. Ətraf mühitin mühafizəsi, yaşıllaşdırma, yol kənarlarında meşə zolaqlarının salınması istiqamətində işlər görülüb, eləcə də Arazboyu Dövlət Təbiət Yasaqlığı, Arpaçay Dövlət Təbiət Yasaqlığı və Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılıb. Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində bölgədə idman obyektləri, mədəniyyət müəssisələri tikilmiş və ya təmir olunmuş, müasir standartlara uyğun təhsil və səhiyyə müəssisələri əhalinin istifadəsinə verilib. Beləliklə, Naxçıvan Muxtar respublikasında görülən işlərin sayı durmadan artır.

Mövcud çağırışlar Naxçıvanın daha inkişaf və yüksəlişinə təkan olacaq. Dövlət Proqramı davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdədir. Bildiyimiz kimi, bu məqsədlərə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuşdu. Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə çatışmazlıqlar aradan qaldırılır və iqtisadi inkişafın sürətləndirilməsi məqsədi ilə tədbirlər həyata keçirilir. Mütərəqqi dünya təcrübəsi göstərir ki, hər bir ölkənin, onun regionlarının, şəhər və kəndlərinin sosial-iqtisadi inkişafında çevik və səmərəli yanaşmaların və innovativ həllərin tətbiqi mühüm rol oynayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Peşə məktəblərində təhsil haqqı niyə yüksəkdir?



## AYDINLIQ GƏTİRİLDİ

"Azərbaycanda peşə təhsilinin ən böyük paradokslarından biri odur ki, dövlətin rəsmi sənədlərində bu sahə "strateji prioritet", "əmək bazarının əsas dayağı", "gənclərin məşğulluq təminatının açarı" kimi təqdim olunur, amma reallıqda peşə məktəblərində təhsil haqqı bir çox hallarda bəzi universitet ixtisaslarından belə yüksəkdir. Bu vəziyyət ölkədə peşə təhsilinin inkişafını süni şəkildə məhdudlaşdırır, gəncləri bu istiqamətdən uzaqlaşdırır və sosial-iqtisadi bərabərsizliyi dərinləşdirir. Halbuki peşə təhsilinin mahiyyəti ondan ibarətdir ki, daha çox gənc tez bir zamanda peşə və bacarıq qazanaraq iş həyatına daxil olsun və ölkədə ixtisaslı kadr çatışmazlığı azalsın. Təhsil haqqının yüksək olması isə bu məqsədin tam əksinə işləyir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.



Kamran Əsədov sözlərinə belə davam edib: "Rəsmi statistikaya görə, 2024-cü ildə ölkə üzrə 92 peşə təhsil müəssisəsinə 25 mindən çox müraciət olub və onların yalnız təxminən 40 faizi dövlət sifarişi əsasında, yəni pulsuz təhsil almaq imkanı əldə edib. Qalan 60 faiz gənc isə ödənişli əsaslarla oxumağa məcbur olub. Təhsil haqları bəzi məktəblərdə illik 800-1500 manat arasında dəyişir ki, bu da orta gəlirli ailə üçün kifayət qədər ağır yükdür. Bu rəqəm ali təhsildə bəzi ixtisaslarla müqayisədə çox yüksəkdir. Məsələn, region universitetlərində pedaqoji ixtisasların illik təhsil haqqı 1400-1800 manat olduğu halda, peşə məktəbində aşpazlıq və ya avtomexanik ixtisasına görə oxşar məbləğ tələb olunur. Bu, həm sosial ədalət prinsiplərinə, həm də "Təhsil haqqında" qanunun 14-cü maddəsinə ziddir. Həmin maddədə göstərilir ki, dövlət və bələdiyyə təhsil müəssisələrində vətəndaşların maddi imkanları nəzərə alınmalı, sosial həssas qruplar üçün xüsusi güzəştlər təmin edilməlidir. Praktikada isə bu norma kağız üzərində qalır və peşə məktəbləri öz xərclərini tamamilə tələbə üzərinə yükləyirlər.

Peşə təhsilinin yüksək ödənişli olması ölkədə bu sahəyə aydın maliyyələşmə siyasətinin olmamasından qaynaqlanır. Elm və Təhsil Nazirliyi universitetlər üçün müəyyən təhsil haqqı limitləri və dövlət sifarişi yerləri müəyyən etsə də, peşə məktəblərinə münasibətdə vahid qiymət siyasəti tətbiq etmir. Bu isə məktəblərin özbaşına təhsil haqqı müəyyən etməsinə şərait yaradır. Dövlət Proqramlarında - məsələn, "Peşə Təhsilinin İnkişafı üzrə 2020-2025-ci illər üçün Dövlət Proqramı"nda peşə məktəblərinin maliyyə yükünün dövlət və özəl sektor arasında bölüşdürülməsi nəzərdə tutulsa da, konkret mexanizmlər işlənməyib. Nəticədə məktəblər öz xərclərini kompensasiya etmək üçün qiymətləri artırır və bu, təhsilin əlçatanlığını azaldır.

Dünya təcrübəsi ilə müqayisə apardıqda, Azərbaycan modelinin geri qaldığı aydın görünür. Almaniyada "Dual təhsil" sistemi çərçivəsində peşə məktəbləri pulsuzdur və tələbə yalnız təhsil almır, həm də əmək müqaviləsi ilə işləyərək aylıq 400-800 avro əməkhaqqı qazanır. İsveçrədə peşə təhsilinin 90 faizi dövlət tərəfindən maliyyələşdirilir, hətta bəzi hallarda tələbə üçün pulsuz nəqliyyat və təcrübə dövründə əlavə müavinətlər təmin olunur. Koreya və Sinqapur modellərində peşə təhsilinə qoyulan dövlət investisiyaları universitetlərlə bərabər və bəzi hallarda daha yüksəkdir, çünki bu sahə sənaye və iqtisadiyyatın əsas təminatçısı kimi görülür. Azərbaycanda isə vəziyyət əksinədir: gənc həm təhsil haqqı ödəyir, həm də təcrübə keçdiyi müəssisələrdə pulsuz işləyir, məzun olduqdan sonra isə işəgötürənlər ondan əlavə sertifikat və kurs tələb edir. Bu, sistemin effektivliyini sual altına qoyur.

Müsbət tərəf kimi son illərdə dövlət sifarişi yerlərinin sayında müəyyən artım qeyd edilə bilər. 2018-ci ildə bu rəqəm cəmi 25 faiz idisə, 2024-cü ildə 40 faizə çatıb. Lakin bu artım ümumi tələbatın qarşısını almaq üçün yetərli deyil. Təhsil haqlarına görə sosial güzəştlərin tətbiqi çox məhduddur və praktiki olaraq yox səviyyəsindədir. Nazirliyin konkret proqnoz və planlarının olmaması nəticəsində bu sahə yalnız formal prioritet olaraq qalır. Elm və Təhsil Nazirliyi ictimai maarifləndirmə işini də aparmır - valideynlər və abituriyentlər peşə təhsilinin real imkanlarından xəbərsiz qalır, onu "keyfiyyətsiz və bahalı" təhsil kimi qəbul edirlər.



Əgər bu sahədə vəziyyət dəyişməsə, ölkədə ixtisaslı kadr çatışmazlığı daha da dərinləşəcək. Statistikaya əsasən, 2025-ci ildən sonra əmək bazarında texniki ixtisaslar üzrə boş yerlərin 50 faizdən çoxunun peşə təhsilli kadrlarla doldurulması tələb olunacaq, amma indiki maliyyə modeli bu tələbatı ödəməyə imkan vermir. Vəziyyəti düzəltmək üçün dövlət təhsil haqqını tam və ya qismən subsidiyalaşdırmalı, Almaniya və Koreya modelinə keçid etməli, müəssisələrə tələbəyə təcrübə zamanı maaş ödəmək öhdəliyi qoymalıdır. Əks halda, peşə məktəbləri sadəcə adını daşıyan, amma gənclər üçün real imkan yaratmayan bir struktur olaraq qalacaq və dövlətin bu sahədə illərdir verdiyi vədlər icrasız qalacaq. Elm və Təhsil Nazirliyinin fəaliyyətsizliyi, plan və proqnoz çatışmazlığı, ictimaiyyətlə düzgün kommunikasiya qurmaması bu sahədə islahatların kağız üzərində qalmasının əsas səbəbidir. Bu problemlər həll olunmayınca, peşə təhsilinə maraq artmayacaq, qiymətlər yüksək olaraq qalacaq və ölkənin iqtisadi inkişafı üçün vacib olan peşəkar kadr bazası formalaşmayacaq".

**Ayşən Vəli**

# Solovyov, sən hələ də Şuşanı xəyal sanırsan?



**Yusif Quliyev**

***Əziz Vladimir Solovyov, sənin ritorikan artıq hər bir azərbaycanlıya tanışdır və hamının hissiyyatına toxunur. Mənim sənə gənc yazar olaraq bir neçə kəlmə sözüm var. Kompütərə yaxın otur və "sən" kimi müraciətimi həmkar olaraq səmimi qəbul et. Gördük, bu dəfə də sən efirdə "ürəyini boşaltdın". Yenə şanlı təbliğatçı ampluanda, yenə gurultulu cümlələrlə, sanki bir-birindən qəzəbli redaktorlar səni qulağından dartıb kamera qarşısına otuzdurmuş kimi danışdın. Bizi təəccübləndirmədin, yox. Sadəcə bir sual var: sən hələ də Şuşanın Azərbaycanın olduğunu qəbul edə bilmirsən?***

Sənin ağrın, problemin Qusmanla Markovun Şuşaya getməsi deyil. Ağrın odur ki, onlar getdilər, qayıtdılar, reallığı da dedilər, amma sənə heç kim belə bir dəvət göndərmədi. Dəvət almayanın qəlbində nə olar? Əlbəttə ki, inciyər, içində fırtına qopar və kamera qarşısında özünü "xəyanətə uğramış vətən fədaisi" kimi aparar. Necə də dramatik səhnə idi...

Deyirsən, Markov və Qusman "alçaqlıq ediblər". Nə üçün? Ona görə ki, Şuşaya gediblər? Və ya Azərbaycan həbsxanalarında saxlanılan "jurnalistlərinizin" taleyindən danışmayıblar? Bəlkə də, onların peşəkar sükutu səni narahat edib, çünki sən alışmısan efirdə sifarişlə qışqırmağa, təhqirə, sarkazma və həqiqəti ayaq altına atmağa.

Amma, Solovyov, biz sənin bu hikkəni başa düşürük. Şuşa - artıq Azərbaycanın siyasi, mədəni, informasiya qalasıdır. Sənin kimi Kreml mikrafonçuları isə hələ də bu qalanın başında dalğalanan üçrəngli bayrağı gözlərindən silmək istəyirlər. Axı necə olur ki, dünən "susmalı olan" Azərbaycan bu gün dünya mediasını bir şəhərinə - Şuşaya - yığa bilir? Necə olur ki, rus ziyalıları buradan sülh, dialoq və əməkdaşlıq haqqında danışa bilir? Sənin üçün bu, əlbəttə ki, qəbuledilməzdir.

Bir tövsiyə verim, qələm əhli olaraq, qələm tutan adama: Vladimir, daha yaxşı olar ki, sən də bu dəfə yazını "Şuşaya dəvət almamış bir təbliğatçının dramı" adı ilə çap etdirəsən. Yazıya etirafla başla "məni çağırmadılar, mən də incimişəm". Çünki inciklliyin sətirlərdən yox, lap dərinlərdən duyulur.

Sonda isə, bir az reallıq hissi, bir az da səmimiyyət. Azərbaycan artıq sizin təbliğat şərhlərinizin fövqündədir. Şuşa isə sizin media ritorikanızın hüdudlarından kənardadır. Tarixi qəbul etməyə cəsarət edin. Həqiqət artıq sizin tərtib etdiyiniz ssenaridən çoxdan çıxıb. Məncə gəl həqiqəti etiraf et və haqqa gəl ki, gələn il sən də Şuşa Forumuna dəvət alasan....

Bir az dərindən nəfəs al, Solovyov... Yaddan çıxartma ki, Şuşaya dəvət almaq hər efir sahibinin qisməti deyil.

# Bakının mərkəzində bərbad yeraltı keçidlər

***Son vaxtlar paytaxtda onlarla piyada keçidi tikilib istifadəyə verilib. Düzdür bəzən bu keçidlərdən istifadə etməməkdə piyadaları günahlandırırıq. Amma bəzi piyada keçidlərinin vəziyyətini gördükdə sakinlərin ondan istifadə etməməkdə haqlı olduğu qənaətinə gəldik.***



Məsələn, paytaxtın mərkəzi küçələri olan "Sahil" və "28 May" ərazilərində yerləşən yeraltı keçidlərdə illərdir davam edən eskalator problemi hələ də öz həllini tapmayıb. Keçidlərdən istifadə edən sakinlər deyirlər ki, burada piyada əvəzinə zibil qalıqlarına rast gəlmək mümkündür. Keçidin içərisində isə siqaret kötükləri və kiçik polietilen torbaların sayı-hesabı yox idi. Bu vəziyyətdən isə razı qalan buranı özünə məskən seçən heyvanlar idi.

Eyni zamanda yaxınlıqda yerləşən digər keçidlərə də isə təmizlik qənaətbəxş idi, amma divarların isə təmirə ehtiyyacı vardı.

Ərazidə yaşayan və arabir keçiddən istifadə edən sakinlər isə divarlardakı daş piltələrinin hər an düşəcəyindən ehtiyatlanırlar. Onları narazı salan bir məqamda isə gecə saatlarında keçidin qaranlıq olmasıdır. **SƏS TV-nin çəkiliş qrupu olaraq sakinlərin fikirlərini öyrənməyə çalışdıq:**

"20 ildir mən burada yeni yaxınlıqda yerləşən mağazaların birində işləyirəm. Amma



bu pilləkənlərin hələ də dəyişdiyini görməmişəm. Hamı buradan düşür, keçir. Bilirlər ki, ya işləyir, ya işləmir. O qədər demişik ki, baxan yoxdur. Baxın, hal-hazırda da biri işləyir, biri yox. Yaşlı nəsil çıxıb düşə bilmir, uşaqlar var, yaşlı ana-atalar var. Təkcə mən deyiləm, o qədər insan var ki, işləməyəndə yolun başqa tərəfi ilə keçir"- deyə, **Bakı sakini Gülşən Qasımova bildirib.**

**Şəhər sakini Məlahət Nuriyeva** isə keçiddən istifadə edərkən uşağı ilə birlikdə



təhlükəli vəziyyətə düşdüyünü deyir: "İşləməlidir, amma mən qorxuram, bir dəfə uşağımla düşmüşəm içinə. İstəyirik düzəlsin, hər şey yoluna düşsün. Biz də insan kimi gedək-gələk, bütün günü çöldəyik".

**Şəhər sakini Şövkət Soltanova** isə bildirir ki, keçidlər fiziki məhdudiyyətli insanlar üçün tamamilə yararsızdır: "Hamilə var, xəstə var. Yaşlı adam olur, əlildir. Onlar aşa-



ğı düşə bilmirlər. Elə mən özüm o gün dayandım, çıxa bilmədim. Qorxdum, yavaş-yavaş pilləkəndən düşdüm. Qolumdan əməliyyat olunmuşam gedib-gələ bilmirəm".

Məsələ ilə bağlı **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) mətbuat katibi Anar Nəcəfli** bəyan edib ki, balansımızda olan eskalatorlarda yaranan nasazlıqların aradan qaldırılması ehtiyat hissələrinin xaricdən gətirilməsindən asılıdır: "Əgər problem yüngüldürsə, təmir işləri yerindəcə və dərhal həyata keçirilir. Lakin bəzi hallarda uzunmüddətli və texniki baxımdan mürəkkəb nasazlıqlar baş verir ki, bu zaman təmir prosesi sex şəraitində aparılır. Bu da müəyyən zaman tələb edir".

Digər tərəfdən isə Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib ki, bu keçidlərə nəzarət onların balansında deyil.



Halbuki, bu keçidlər az qala hər gün minlərlə vətəndaşın istifadə etdiyi strateji nəqliyyat məntəqələridir. Onların baxımsız qalması, aidiyyəti qurumların məsuliyyəti bir-birinin üzərinə atması cəmiyyət arasında ciddi narazılıq doğurur.

Qeyd edək ki, son illərdə ölkədə piyada keçidlərinin tikintisi ilə bağlı bir sıra işlər görülüb. 2016-2018-ci illərdə Bakıda 3 yeraltı və 19 yerüstü piyada keçidi, 2018-2019-cu illərdə isə 7 yeni keçid istifadəyə verilib. Əlavə olaraq 8 ərazidə yeni keçidlərin tikintisinə başlanılıb.

*Məsələ diqqətdə saxlanılacaq.*

***Fatimə Əliyeva***



# İşıqlı gələcəyin təcəssümü: Cəbrayıla növbəti köç!

## Prezident İlham Əliyev: "Aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək"





Qarabağ və Şərqi Zəngəzur tarixi dövrlərinin ən gözəl zamanını yaşayır. Qələbəyə, Zəfərə şahidlik edən doğma yurd yerləri bu gün ardı-arası kəsilməyən köç karvanlarını qarşılayır. Böyük sevgi ilə yurd yerlərinə dönənlər bu torpağın nəfəsini duymağı, onun üzərində gəzməyi, dolaşmağı, yaşamağı illərdir ki arzu edirdilər. Bu torpaqlar müqəddəs yerlərdir - həm tarixi baxımından, həm də şəhid qanı ilə suvarıldığından. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, yenidən qurulan Cəbrayıl şəhəri də öz doğma sakinlərini qarşılayır. İyulun 30-da respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Cəbrayıla çatıb. Bu mərhələdə Cəbrayıl şəhərinə 44 ailə - 166 nəfər köçürülüb.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır.

### "MÜHARİBƏNİN BİRİNCİ HƏFTƏSİNDƏ ŞƏHƏR, RAYON MƏRKƏZİ AZAD EDİLMİŞDİ"

"Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!" Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 oktyabr 2020-ci il tarixli rəsmi "Twitter" səhifəsində yazmışdı. Həmin gün Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri işğaldan azad olunmuşdu. "Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi", - deyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirmişdir: "Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi və bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir. Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir - Böyük Mərcanlı və Nüzgar kəndi və Füzuli rayonunun 4 kəndi və bu, bizim birinci uğurumuz idi".

2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri düşmən tapdağından azad olundu. Üçrəngli müqəddəs Azərbaycan bayrağı Cəbrayılda dalğalanır. Vətən Müharibəsi başa çatandan az sonra - 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdi. İlham Əliyev Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırdı. Cəbrayıl rayonunun yeni dövrü başlandı: abadlıq-quruculuq dövrü. Erməni vandalları, təcavüzkarları tərəfindən dağıdılmış ərazi yenidən qurulur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cəbrayıl rayonuna səfərləri və yeni məkanların təməlinin qoyulması, açılışların edilməsi, görülən işlərlə tanışlıq və tapşırıqların verilməsi işıqlı gələcəyimizin təcəssümüdür.

### CƏBRAYILDA MÜASİR İNFRASTRUKTUR

Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan Cəbrayılda müasir infrastruktur yaradılır. Dövlətimizin başçısı hələ Cəbrayıl şəhərinin işğaldan azad edilməsinin birinci ildönümündə bu əraziyə səfər edərək Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin və "Araz Vadisi İqtisadi Zonası"nın təməllərini qoyub, həmçinin "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin açılışında iştirak etmişdir. Eyni zamanda Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının açılışını etmişdir. 44 günlük Vətən müharibəsində işğaldan azad edilən Cəbrayıl rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan təmizlənib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yeni yarımstansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib. O cümlədən 110/35/10 kilovoltluq "Qubadlı" və "Zəngilan" yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılıb.

"Cəbrayıl" yarımstansiyası, ilk növbədə, bu rayonda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini, eləcə də rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün kənd-qəsəbələrini elektrik enerjisi ilə təmin edir.



### 2026-CI İLDƏ 3 800 NƏFƏR ŞƏHƏRDƏ MƏSKUNLAŞACAQ

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev dörd il əvvəl Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib. Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib. Dövlətimizin başçısının tapşırığına əsasən işğaldan azad olunan ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir.

Ərazisi 64 hektar olan hərbi hissə kompleksinə qərargah binası və əsgər yataqxanası, şəxsi heyətin xidməti yüksək səviyyədə aparması üçün lazımi şəraitlə təmin edilən iş otaqları, yeməkxana binası, hamam-camaşırxana, yaşayış şəhərciyi, avtomobil texnikasının saxlanması üçün bokslar, silah, yanacaq, ərzaq və əşya-geyim anbarları daxildir. Bu gün görülən işlərin miqyası genişlənib. .Məlumdur ki, 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, işlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və görülən işlərə dövlət başçımızın şəxsən nəzarət etməsi, onu deməyə əsas verir ki, tezliklə işğaldan azad edilən ərazilərimiz cənnətə çevriləcək.

Bildiyimiz kimi, Cəbrayıl şəhərinin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. Cəbrayılın Baş Planına əsasən, 2026-cı ilin sonunadək təqribən 3 800 nəfər şəhərdə yerləşdiriləcəkdir. 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binası artıq istifadəyə verilib. Doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər ən müasir tələblərə cavab verən təhsil ocağında oxuyurlar. Bu tam orta məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəb də tikiləcəkdir. Qeyd edək ki, məktəb 1876-cı ildə tikilib istifadəyə verilmişdi.

### SABİTLİK VƏ DAYANIQLI İNKİŞAF

Şəhərin Baş planının hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək.

Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 km-dən çox olacaq.

Əlbəttə ki, işğaldan azad olunan ərazilərimizdə infrastruktur layihələr, yeni yolların çəkilişi, yaşayış yerlərinin təməlinin qoyulması, iaşə müəssisələrinin açılışı və s. planlı şəkildə layihələr əsasında həyatı keçirilir. Bu gün işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı layihələr təkcə bərpa və yenidənqurma deyil, həm də gələcəyə doğru inamlı və strateji addımların bariz ifadəsidir. Burada salınan hər yeni yol, tikilən hər məktəb, yaradılan hər iqtisadi zona Azərbaycanın gələcəyinə, sabitliyə və dayanıqlı inkişafa uzanan yolun bir hissəsidir.

Göründüyü kimi, işğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik. Ona görə "Böyük Qayıdış" Proqramı artıq reallaşıb. Təbii ki, bunun mərhələləri olacaq və aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək".

***Zümrüd BAYRAMOVA***

# Türkiyə dünyanın hərbi və iqtisadi güc mərkəzinə çevrilir!

***Böyük qürur və fəxarət hissi ilə qeyd etmək olar ki, bu gün dünya siyasi arenasında türkdilli dövlətlər, bəzi müsəlman ölkələri xüsusi çəkiyə, böyük nüfuza, hörmətə malikdirlər. Əsasən də, Azərbaycan, Pakistan və Türkiyənin dünya siyasət aləmində oynadıqları rol dostları sevindirir, düşmənlərin isə bağrını yarır. Artıq birmənalı şəkildə deyilir ki, dünyanı idarə edən əsas güc mərkəzləri siyahısında Türkiyə, Azərbaycan və Pakistan dövlətləri də var. Bu üçlüyün qlobal güc mərkəzinə çevrilməsinin əsas səbəbi iqtisadi imkanlarının artması ilə yanaşı hərbi gücünün yüksəlməsidir.***

Birmənalı şəkildə vurğulamaq lazımdır ki, günü-günündən hər sahədə inkişaf edən dost, qardaş Türkiyə dünyanın hərbi gücünə və qüdrətinə görə qabaqcıl ölkələrdəndir. Təbii ki, Türkiyənin böyük qlobal gücə çevrilməsinin təməlində böyük öndər Mustafa Kamal Atatürkün əsasını qoyduğu siyasətinin bugünkü prezident Rəcəb Tayyib Ərdoğanın yorulmaz əməyi, müdrik siyasi iradəsi dayanır. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə iqtisadiyyatı böyük inkişafa, tərəqqiyə nail olub. 2005-ci ildə 324 milyard dollar ÜDM-ə malik olan Türkiyə iqtisadiyyatı hazırda 1 trilyon ABŞ dollarına yüksəlib. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması gözlənilir. Türkiyə hazırda hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik olan ölkələrdən hesab olunur. 2020-ci ilin avqustunda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyənin Qara dənizdə təxminən 320 milyard kubmetr təbii qaz ehtiyatı olan karbohidrogen ehtiyatları aşkar etdiyini açıqlamışdı. Prezidenr Rəcəb Tayyib Ərdoğan bildirmişdir ki, qaz yatağının aşkar olunması Türkiyənin xaricdən enerji asılılığından xilas olmasına töhfə verəcək. Artıq aparılan sürətli işlər nəticəsində Türkiyənin Qara dənizdə yerləşən qaz yatağından çıxarılan qaz ilk dəfə quruya çatdırılıb. Türkiyə Prezidenti bu hadisəni ”ölkənin enerji müstəqilliyi yolunda tarixi addım” adlandırıb. Qazanılan iqtisadi, sosial uğurlar söz yox ki, Türkiyə dövlətinin daha da güclənməsinə, Türk xalqının sosial rifahının yaxşılaşmasına xidmət edir.





## Türkiyə hərbi qüdrətinə görə dünyanın lider dövlətlərindəndir

2025-ci il üçün dünyanın ən güclü ordularının siyahısı açıqlanıb. ”Global Firepower”ın təqdim etdiyi orduların güc reytinqi siyahısı dünya üzrə 145 ölkənin ordusunu əhatə edib. Bir çox ölkələri geridə qoyan Türkiyə siyahıda 9 -cu yer də qərarlaşıb. Bu göstərici 2023 və 2024-cü illərə nisbətən daha uğurlu və müsbət göstəricidir. Çünki 2023-cü il sıralamasında Türkiyə 14-cü, 2024-cü il də isə dünyada güclü orduları sıralamasında 11-ci yerdə qərarlaşmışdır. Hazırda Türkiyə ordusunun dünyanın ən qüdrətli orduları siyasında 9-cu yerdə olması, bu ölkənin hərbi texnaloji imkanlarının sürətlə inkişaf etdiyini göstərir. Diqqətçəkən məqam ondan ibarətdir ki, , Türkiyənin dünya miqyasında gücünə güc qatan Pilotsuz Uçuş Aparatı (PUA) və zərbə PUA-sı sistemləri ”Global Firepower”ın siyahısında nəzərə alınmayıb. Təbii ki, əgər ”Global Firepower” müstəqil mövqe sərgiləyərək Türkiyənin yeni nəsl Pilotsuz Uçuş Aparatı (PUA) və zərbə PUA-sı sistemlərini də təhlillərinə əlavə etsə idi, o zaman Türkiyə təqdim olunana siyahıda daha ön sıralarda yer alardı. bildirilir.

Türkiyə istehsal etdiyi hərbi silah-sursatların xaricə satışında da müsbət irəliləyişlərə malikdir. Dost, qardaş ölkə dünyada silah ixracatı baxımından 11-ci yerdədir. Türkiyə 2023-cü il də xaricə 5,6 milyard dollarlıq hərbi texnika ixrac edib. 2024-cü ildə isə bu göstərici 7, 3 milyard dollar olub. 2025-ci ilin son 6 ayının nəticələrinə görə, Türkiyə 7 milyard dollarlıq hərbi texnikanı xaricə satıb. İlin sonuna qədər bu göstəricinin 8, 5 milyard dollara yaxın olacağı proqnozlaşdırılır. Türkiyə Hərbi Hava Qüvvələri (HHQ) 1069 hərbi hava vasitəsi ilə hava üstünlüyü təmin etmək gücünə sahibdir. ”Kaan” başda olmaqla, 5-ci nəsil döyüş təyyarələri ilə bağlı planlar bu gücü daha da artırır. ”Global Firepower” hərbi texnika satışını həyata keçirən dövlətlərin siyahısını təqdim edərkən yenə də pilotsuz uçuş aparatlrının və zərbə dronlarının xaricə satışını siyahısına əlavə etməyib. Halbuki, Türkiyənin ”Baykar” şirkəti pilotsuz uçuş aparatlarının (PUA) istehsalı baxımından dünyada inqilaba bərabər nailiyyətlər əldə edib. ”Bayraktar TB2”, ”Bayraktar TB3”, ”Akıncı” PUA-ları, ”KızılElma” insansız qırıcılarını istehsal edən şirkət dünyanın 30-a yaxın ölkəsinə satış həyata keçirib. Avropa, Mərkəzi Asiya, Afrika bölgələrində yerləşən onlarla ölkə ”Bayraktar TB2” PUA-sı alıb. Bu silahlar Suriya, Liviya, Qarabağ, Ukrayna kimi münaqişə bölgələrində aktiv istifadə olunub.




## Türkiyənin hərbi texnikasının əsas alıcısı ABŞ-dır

Türkiyənin ”Baykar” şirkətinin yaratdığı digər PUA ”Akıncı”dır. Daha təkmil və güclü ”Akıncı” ağır raketlər daşıya və uzun müddət hədəf üzərində uçuşlar həyata keçirə bilər. PUA artıq Türkiyə ordusunun silahlanmasına qəbul edilib və xaricə ixrac olunmağa başlayıb. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu ”Global Firepower” dan fərli olaraq Türkiyənin ”Baykar” şirkəti pilotsuz uçuş aparatlarının xaricə satışını təqdim etdiyi siyahıda əks etdib. Qeyd olunub ki, şirkət 2924-cü il də xaricə 5 milyard dollarlıq pilotsuz uçuş aparatı satıb. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun siyahısında Türkiyənin ”Baykar” şirkəti dünyada silah satışına görə, siyahıda 8-ci yerdədir.

Türkiyənin hərbi texnikasının əsas alıcıları ABŞ, Azərbaycan, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Ukrayna, Efiopiya, Mərakeş, Fransa, Tunis, Banqladeş, Birləşmiş Krallıq, Hindistan, Türkmənistan, Çin, Özbəkistan, Ruanda, Hollandiya, İordaniya, Kanada, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Oman hesab olunur. Diqqətçəkən məqam ondan ibarətdir ki, dünyanın hərbi gücünə görə, birinci sırada yer alan ABŞ Türkiyə istehsalı olan hərnin texnikaya və silahlara daha çox üstünlük verir. ABŞ 2023-cü il də Türkiydən 1 milyard 325 milyon dollarlıq, 2024-cü il də isə 1 milyard 457 milyon dollarlıq silah və hərbi texnika alıb. Bu göstəricinin 2025-ci ilin sonuna qədər 2 milyard dollara yüksələcəyi ehtimal olunur.

## Türkiyənin hərbi gücünə güc qatan yeni silah

Türkiyənin hərbi gücünə güc qatan daha bir texnika isə bu ölkənin öz istehsalı olan ilk ”Altay” tankını istehsal etməsidir. Mükəmməl gücə və geniş imkanlara malik ”Altay” tankı dünyanın ən güclü tankları ilə rəqabət aparmaq imkanına malikdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yaxın tarixdə müstəqil müdafiə sənayesini yaratmağa nail olacaqlarını bəyan edib. Prezident bildirib ki, modern savaş tankı olan ”Altay”la nailiyyətlərimizi taclandırdıq: ”Yeni ”Altay” tankımız 10 il əvvəl ortaya çıxan prototipdən çox fərqli və üstün imkanlara malikdir. Digər müdafiə layihələrimiz kimi ”Altay” tankının hazırlanması zamanı da çətinliklərlə qarşılaşdıq. Layihəmizə mane olmağa çalışdılar. Hər bir strateji məhsulda olduğu kimi, ona da ”çirkab” atıldı. Gizli və açıq embarqolarla prosesi sabotaj etməyə çalışdılar. Bütün hücumlara məruz qalsaq da, təslim olmadıq, bir addım da geri çəkilmədik. Bu şəkildə ortaya çıxan tankımızı silahlı qüvvələrimizə çatdırırıq. Ordumuz sınaqlarını başa vurduqdan dərhal sonra tanklarımızın kütləvi istehsalına başlayacağıq”.

Azərbaycan Ordusunun silah arsenalında Türkiyənin istehsal etdiyi hərbi texnika və silahlar daha çox üstünlük təşkil edir. ”Baykar” şirkətinin istehsal etdiyi pilotsuz uçuş aparatları, o cümlədən ”Bayraktar TB2”, ”Kargu” PUA-ları, ”Kobra” zirehli maşınları, ”Qasırğa”, ”Sakarya” raket sistemləri və digər müasir texnika və silahlar Azərbaycan ordusunda yer alır.

Hələ ikinci Qarabağ savaşı zamanı "Bayraktar TB2", "Kargu" PUA-ları vasitəsi ilə Ermənistan ordusunun darmadağın edilməsində geniş istifadə edilmiş və ən yüksək nəticələr əldə olunmuşdur. Müharibə Azərbaycan ordusunu parlaq hərbi qələbəsi ilə başa çatdıqdan sonra Türkiyənin "Baykar" şirkəti ilə Azərbaycanın Müdafiə Nazrliyi arasında geniş əlaqələr, əməkdaşlıq münasibətləri qurulmuşdur. Şirkətlə Azərbaycan Müdafiə Nazirliyi birgə pilotsuz uçuş aparatları istehsal edən zavod inşa edib, istehsal həyata keçirirlər.

## Azərbaycan-Türkiyə qardaşlığı əbədi və dönməzdir

Azərbaycanla Türkiyə arasında mövcud olan, sarsılmaz dost, qardaş münasibətləri Böyük Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Dahi Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarına söykənir. Hər iki dövlət beynəlxalq arenada, o cümlədən BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində bir-birinə dəstək olurlar. Bu baxımdan Azərbaycanla Türkiyə arasında mövcud olan qardaşlıq əlaqələri dünya düzənində bir nümunəyə, bir misala çevrilib. Azərbaycanın və Türkiyənin birlikdə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP kimi meqalayihələrdən qardaş ölkələrimizlə yanaşı, digər xalqlar da faydalanır. Bu isə regionda və Avropada enerji təhlükəsizliyinə mühüm töhfələrin verilməsi deməkdir.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsində Türk milləti, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana hər cür mənəvi, siyasi, diplomatik dəstək göstərdi. Ölkəmizdə təşkil edilən Zəfər paradında Azərbaycan və Türkiyə prezidentləri və onların orduları iştirak etdilər. 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar. Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında əlaqələri, sarsılmaz münasibətlərin



daha da möhkəmlənməsinə xidmət edir. Azərbaycan Prezident İlham Əliyev sənədlərin imzalanma mərasimində çıxışında Şuşa Bəyannaməsinin əlaqələrimizi ən yüksək zirvəyə qaldırdığını bildirib: "Bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özözlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatçısıdır".

Türkiyənin Kahramanmaraş vilayətində baş verən dağıdıcı zəlzələ zamanı on minlərlə insanın xəsarət alması, minlərlə insanın həyatlarını itirməsi Azərbaycan xalqını dərindən sarsıtdı. Yeddidən yetmiş yeddiyə qədər hər bir azərbaycanlı zərər görən türk qardaş və bacılarımıza kömək etməyə çalışdı. Zəlzələnin baş verməsindən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, ölkəmizin Türkiyənin dərdinə şərik çıxdığını, Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduğunu bildirdi. Dövlətimizin başçısı 420 nəfərdən ibarət xilasedici heyətin qardaş ölkəyə göndəriləcəyini və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaqlarını qeyd etdi.

Prezident İlham Əliyev Türkiyənin Bakıdakı səfirliyini ziyarət edərək, zəlzələ nəticəsində çoxlu sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verdi və Azərbaycan xalqının və dövlətinin hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında olduğumuzu bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, zəlzələnin fəsadlarının aradan qaldırılmasında Türkiyə qardaşlarımıza yardımçı olmaq üçün Fövqəlada Hallar Nazirliyinin yardımlarından ibarət təyyarələr, həmçinin 16 ədəd xüsusi təyinatlı nəqliyyat vasitəsi Kahramanmaraş şəhərinə yola salındı. Azərbaycan Respublikası tərəfindən qardaş ölkəyə xilasedicilər, tibbi və inzibati heyət, könüllülərdən ibarət 867 həmvətənimiz göndərildi. Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Türkiyəyə yardım çağırışına qoşulan xalqımız qardaş xalqın köməyinə yetişmək üçün bir nəfər kimi səfərbər oldu. Bu kampaniyada Heydər Əliyev Fondu xüsusi ilə seçildi. Məhz kampaniyada Heydər Əliyev Fondunun təşkil etdiyi kampaniya çərçivəsində qardaş ölkəyə fasiləsiz humanitar yardımlar göndərildi. Dəstəyin daha bir nümunəsi Kahramanmaraş vilayətində inşa olunan "Azərbaycan" yaşayış məhəlləsinin alınmasıdır. Ümumi sahəsi 32 hektar olan məhəllənin layihəsinə əsasən burada yaşayış binaları, məktəb və uşaq bağçası, mədəniyyət mərkəzi salınıb. Artıq Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Kahramanmaraş şəhərində "Azərbaycan" yaşayış məhəlləsinin açılışı həyata keçirilib.

Təbii ki, əlaqələr, geniş qardaşlıq münasibətləri bundan sonra da davam edəcək. Çünki liderlərimizin də dediyi kimi, bizləri ancaq dövlətlərimizin adlarının Azərbaycan və Türkiyə olması fərqləndirir, irsimiz, dəyərlərimiz, dinimiz və dilimiz isə eynidir.

***İLHAM ƏLİYEV***

---

*GÜNÜN SUALI*

# Azərbaycan neftdən asılılığını necə azaldır?

Qlobal neft qiymətlərinin davamlı azalması fonunda uzun müddətdir ki, neft sərvətindən asılı olan Azərbaycan iqtisadiyyatını şaxələndirmək üçün səylərini gücləndirir. Ölkə hansı tədbirləri görür? Bu barədə Kazinform agentliyinin müxbiri geniş məqalə ilə çıxış edib.

## Neftdən sənaye və logistikaya qədər

Rəsmi məlumatlara görə, Azərbaycanın ÜDM-də qeyri-neft sektorunun payı 2022-ci ildəki 66%-ə qarşı 2024-cü ildə 68%-ə çatıb. 2025-ci ildə bu rəqəmin 72,9%-ə yüksələcəyi gözlənilir. Eyni zamanda, 2024-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirləri 5,6-14 milyard manat (illik 5,6-14 milyard manat) artıb. Neft-qaz sənayesinə qoyulan investisiyalar isə əksinə, 9% azalaraq 3 milyard dollara yaxın təşkil edib ki, bu da resurs siyasətinin yenidən istiqamətləndirilməsindən xəbər verir. "Biz hərtərəfli keçidin şahidiyik. Qeyri-neft sektorlarına xarici investisiyaların artımı xüsusilə diqqətəlayiqdir", - Moody's nəqliyyat, logistika və istehsalatda güclü artımı qeyd edərək yazıb. Bunun bariz nümunəsi kimi polimerlərdən tikinti materiallarına qədər bir sıra məhsullar istehsal edən Sumqayıt Kimya Sənaye Parkını göstərmək olar. Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) boyunca logistika qovşağı kimi də mövqeyini möhkəmləndirib. Son beş ildə ölkə Harvard Growth Lab-ın İqtisadi Mürəkkəblik İndeksində 44 pillə irəliləyib.

Harvard Beynəlxalq İnkişaf Mərkəzi, ölkələrin İqtisadi Mürəkkəblik İndeksini qiymətləndirən may hesabatında "Bu, uğurlu sənaye diversifikasiyasını əks etdirir" deyib.

Struktur islahatları və biznes mühiti

Rəsmilər dövlət-özəl tərəfdaşlıq, təkmilləşdirilmiş rəqabət qanunları və kiçik və orta biznesə dəstək proqramları da daxil olmaqla hökumət təşəbbüslərinin rolunu vurğulayırlar. 2025-ci ilin iyul ayına kimi ölkədə 1,6 milyon vergi ödəyicisi və 200 minə yaxın kommersiya qurumu qeydiyyatdan keçib ki, bu da müvafiq olaraq 4,8 faiz və 7,7 faizdən çox illik artımı əks etdirir.

- Tənzimləyici mühitin təkmilləşdirilməsi və sahibkarlığın stimullaşdırılması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat və menecment kafedrasının müəllimi Məmməd Talıblı deyir ki, bu sürətin davam etdirilməsi təhsil, maliyyə və dövlət müəssisələrinin idarə edilməsində ardıcıl islahatların aparılmasını tələb edir. Asiya İnkişaf Bankı (AİB) bu fikri bölüşür. AİB son hesabatında vurğulayır ki, "aşkar irəliləyişlərə baxmayaraq, uzunmüddətli qeyri-neft artımını təmin etmək üçün infrastruktur, təhsil və dövlət sektorunun səmərəliliyində əlavə islahatlara ehtiyac var".



## Diversifikasiya problemləri

Tərəqqiyə baxmayaraq, Azərbaycanın ixracı hələ də 90 faizdən çox neft və qazdan asılıdır. 2024-cü ilin əvvəlindən neft qiymətlərinin kəskin düşməsi diversifikasiya ehtiyacını daha da gücləndirib. İqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, karbohidrogen ixracından struktur asılılığı zəiflik olaraq qalır. O hesab edir ki, mövcud vəziyyət Azərbaycanın həm regional, həm də qlobal bazarlarda daha güclü mövqe tutması üçün təcili dəyişikliklərə ehtiyac olduğunu göstərir. "Bu, ölkənin iqtisadi siyasətində və strategiyasında genişmiqyaslı islahatların aparılmasını tələb edir. İqtisadiyyatın müxtəlif sahələrinin inkişafı daha böyük sabitliyi və uzunmüddətli uğurları təmin edərdi", - ekspert öz fikrini bildirib. Yerli biznes liderləri də inkişaf üçün imkanlar görürlər. "Qeyri-neft sektorları üçün tənzimləyici islahatlar və stimullar alqışlanır. Bununla belə, gömrük prosedurları, vergi siyasətinin ardıcıllığı və beynəlxalq maliyyələşməyə çıxış kimi məsələlər həllə də diqqət tələb edir", - deyə sahibkar İlqar Əliyev bildirib.

## Davamlı və inklüziv gələcək

Nyu-Yorkda keçirilən BMT-nin Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Forumunda Azərbaycan İqtisadiyyat Nazirliyinin şöbə müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov qeyd edib ki, Azərbaycan təkcə bərpa prosesi ilə məhdudlaşmır, inklüziv və şaxələndirilmiş iqtisadi modeli uğurla həyata keçirməklə daha güclü gələcək qurur: "2011-2023-cü illər ərzində ölkədə ÜDM orta hesabla ildə 2%, qeyri-neft və qeyri-qaz sektoru isə hər il orta hesabla 4,4% artıb. Bu rəqəmlər iqtisadiyyatın şaxələndirilməsi strategiyasının uğurla həyata keçirildiyini nümayiş etdirir. Strategiya həmçinin minimum əmək haqqının, pensiyaların və digər transfertlərin artırılmasını nəzərdə tutur ki, bu da həssas qrupların iqtisadi dayanıqlığının gücləndirilməsinə kömək edir, deyə spiker bildirib.

## İslahatlara diqqət yetirin

Azərbaycanın strateji yol xəritələri 2025-ci ilə qədər neftdən asılılığın daha da azaldılmasını nəzərdə tutur. Hökumətin planlarında ixracın təşviqi, KOS-un inkişafı və qlobal dəyər zəncirlərinə daha dərin inteqrasiya prioritet təşkil edir. Beynəlxalq ekspertlər ümumilikdə Azərbaycanın düzgün yolda olması ilə razılaşırlar. Growth Lab qeyd edir: "Hökumətin sənaye investisiyalarını, hüquqi islahatları və qlobal ticarətə inteqrasiyanı birləşdirən çoxsəviyyəli yanaşması daha möhkəm və şaxələndirilmiş iqtisadiyyatın əsasını qoyub".

Lakin ekspertlər xəbərdarlıq edirlər ki, islahatların sürətini saxlamaq və struktur problemlərin həlli əldə olunan nailiyyətləri möhkəmləndirmək üçün mühüm əhəmiyyət kəsb edəcək. Konsensus ondan ibarətdir ki, Azərbaycanın iqtisadi gələcəyi indi neft qiymətlərindən daha az asılıdır. Onun bütün sektorlarda uzunmüddətli islahatlar həyata keçirmək qabiliyyəti də artmaqdadır.

***V.VƏLİYEV***

# Aleksandr Razuvayev:
# Avropa Paşinyana siyasi və maliyyə dəstəyi verir, əvəzində isə...



***Tanınmış rusiyalı politoloq Aleksandr Razuvayev Ermənistanın gələcək geosiyasi vektorunun perspektivlərini "Moskva-Baku" portalına şərh edib. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.***




*- Aleksandr Yuryeviç, Ermənistanın gələcək geosiyasi vektorunu necə görürsünüz? Bu günlərdə Ermənistanın baş naziri Paşinyan ekoloji konfransda iştirak etmək üçün Rusiyanın Altay Respublikasına səfər edib. Gələn il ölkədə keçiriləcək parlament seçkiləri də daxil olmaqla, Ermənistan son nəticədə hansı yolu seçəcək?*



- Paşinyanın Altay səfəri ilk növbədə Ermənistanın gələn il BMT-nin COP17 konfransına ev sahibliyi etməsi ilə bağlıdır və MDB ölkələrini İrəvanda keçiriləcək konfransa dəvət etmək üçün Rusiyadakı sammitdə iştirak etmək onun üçün sərfəli idi. Fakt budur ki, indiki geosiyasi vəziyyəti nəzərə alsaq, Ermənistanın indiki baş naziri həm Qərblə, həm də Rusiya ilə yaxşı münasibətlər qurmaq istəyir. Onun taktikası bir qədər Qorbaçovun hərəkətlərini xatırladır... Qorbaçovun taktikasının ölkə üçün necə bitdiyini xatırlayırıq...

Mən inanıram ki, siyasətdə hamını razı salmaq olmaz. Ermənistanda tezliklə parlament seçkiləri keçiriləcək və burada Nikol Vovayeviçin taleyi yenidən həll olunacaq və o, rusiyayönlü, qərbyönlü və milli düşərgələrdən daha çox səs toplamaq istəyir. Xatırlayırıq ki, Paşinyan Ermənistanda hakimiyyətə gəlməzdən əvvəl həmişə Ermənistanın qərbyönlü gələcəyi mövqeyini səsləndirib. Əslində bu vəzifədə heç nə dəyişməyib. Və İrəvanın son vaxtlar fəal şəkildə Rusiyaya qarşı nümayiş etdirdiyi dostluq mövqeyi daha çox üstüörtülü hiylədir. İndiki baş nazir Rusiya ilə münasibətləri saxlamaqla özünü iqtisadi cəhətdən yenidən sığortalayır. Rusiya Federasiyası ilə iqtisadi əməkdaşlıq, Ermənistanın Aİİ-yə üzvlüyü respublika üçün iqtisadi cəhətdən çox faydalıdır.

Ermənistanda qarşıdan gələn seçkilərdə Paşinyanın növbəti qələbəsi çox yüksək ehtimaldır. Görünən odur ki, müxalifətin gündəmi, onun başında kimin olmasından asılı olmayaraq, əhalinin ürəyincə deyil.

Amma hesab edirəm ki, Paşinyanın eyni vaxtda bir neçə kresloda oturmaq siyasəti nə vaxtsa iflasa uğrayacaq. O, hələ də (hətta bunu inkar etsə belə) Qərbin dəstəyinə arxalanır. O, bu yaxınlarda Brüsselə səfər edib, burada Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen və Avropa Komissiyasının rəhbəri Antonio Koşta ilə görüşüb. Bu görüşlərdə Ermənistanda keçiriləcək seçkilərdə ona əlavə maliyyə və siyasi, həmçinin digər formalarda digər dəstək vəd edilib. Qərb vektoru, Qərbin maliyyələşməsi indiki baş nazirin səlahiyyətlərinin əsasını təşkil edir.

Paşinyan bu yaxınlarda bəyan etdi ki, onun fikrincə, Ermənistanın Aİ-yə daxil olması üçün 20 il vaxt lazımdır. Və bu cür ifadələr, təbii ki, Rusiya qarşısında da manipulyasiyadır: deyirlər ki, biz heç yerə tələsmirik və ümumiyyətlə reallıqlar var.

Təbii ki, Paşinyan Ermənistanda keçiriləcək parlament seçkilərinin nəticələrini gözləyir. O, bunun üzərində oynayır və bütün səylərini buna cəmləyir. Çox güman ki, o, seçkilərdən sonra Konstitusiya ilə bağlı referendum keçirmək niyyətindədir ki, onun da bəndlərindən biri Avropa istəkləri olacaq. Amma o, yenə də bu məsələdə radikal şəkildə tələsməyəcək, bu, onun maraqlarına uyğun deyil. Ola bilsin ki, Aİ ondan Rusiyadan uzaqlaşmaq üçün konkret addımlar tələb etsin, amma Paşinyan diplomatik "təpik" atacaq.

Avropa İttifaqında Ermənistana xüsusi ehtiyac yoxdur. Tutaq ki, öz hərbi bazasını Rusiyaya, İrana qarşı yerləşdirə bilər. Fransa birlikləri Azərbaycana qarşı yerləşdirilib- bəli. Amma Ermənistan Aİ-də- yox bu mümkün deyil, Avropa Birliyinə bu lazım deyil.

Brüssel Paşinyandan Rusiyadan uzaqlaşmaq, KTMT-dən, Aİİ-dən çıxmaq üçün konkret addımlar tələb edəcək. Paşinyan da onu dartıb çıxaracaq. Aİ onu divara sıxsa, o, nəsə etməyə başlayacaq. Amma o, konkret təhlükəsizlik yastığı olmadan Rusiyaya qarşı kəskin addımlar atmaq istəməyəcək. Bu, onun maraqlarına uyğun deyil. Buna görə də hamıya hər şeyi vəd edir. Amma o, əbədi olaraq eyni vaxtda bir neçə stulda otura bilməyəcək.

*Tərcümə - Elçin*



Elçin Bayramlı

# Meşələri kim yandırır? Qorxunc qlobal plan

***Son illərdə dünyada meşə yanğınları artır. Planetin ağciyərləri sayılan Amazon, Sibir, Kaliforniya, Afrika meşələrinin, həmçinin Avstraliya, Türkiyə, Yunanıstan və sair ölkə meşələrinin çox böyük sahələrdə yanması planetimizin ekologiyasına sarsıdıcı zərbə vurub. Sonuncu dəfə isə Havay adaları yandırıldı. İnternetdə yayılan müşahidə kameralarının çəkilişlərində səmadan işıq şüasının yerə doğru yönəldiyi və yanğınların başladığı aydın görünür. Əvvəlki yanğınların da qəsdən törədildiyi haqda çoxsaylı faktlar aşkar olunmuşdu.***

Əldə olunan bir çox faktlar bu yanğınların qəsdən törədildiyini dəqiq şəkildə sübut edir. Bəzi yerlərdə (məsələn, Türkiyədə) xətt üzrə yanğının baş verməsi o əraziyə kosmosdan peyklərlə lazer şüası verilməsi haqda ciddi iddialara səbəb olub. Həmçinin, Sibir və Amazon meşələrində yandırıcı kapsulların tapılması də, bu kapsulların ölkə üzərindən keçən təyyarələrdən səpilməsi haqda ciddi iddialar doğurub. Bir sıra hallarda meşələri qəsdən yandıran adamların ya görüntüləri aşkar olunub, ya da bu adamlar ələ keçib.

Təsəvvür edin, Türkiyədə eyni vaxtda 400-ə yaxın ərazidə meşə yanğını başlayıb. Bunun təbii surətdə olması heç nəzəri cəhətdən də mümkün deyil. Aşkar faktlar, videomateriallar var ki, bunların qəsdən törədildiyini sübut edir.

Əlbəttə, təbii səbəblərdən yanğınlar da olur, lakin bunlar ümumi yanğınların çox az bir hissəsini təşkil edir. Ehtiyatsızlıqdan yaranan yanğınlar və təbii səbəblərdən baş verən yanğınlar ümumi halların maksimum 20 faiz ola bilər. Dünya mediasında artıq bu qlobal prosesi hansı qüvvənin təşkil etdiyi haqda geniş müzakirələr gedir.

Azərbaycanda da son illərdə meşə yanğınlarının sayı artıb. Meşələrimizdə başlayan yanğınlar nəticəsində böyük ölçüdə ağaclar və otluq sahəsi yanaraq məhv olub. Həmçinin, meşədə yaşayan heyvanlar yanıb. Əlbəttə, bunların bəzilərinin qəsdən törədildiyi aşkar faktdır- məsələn, Qarabağ bölgəsində ermənilərin yandırdığı meşələri misal göstərmək olar. Lakin digər bölgələrdə də baş verən çoxsaylı yanğınlar bir çox hallarda şübhələrə səbəb olur. Bunların hamısını istilərlə, quraqlıqla əlaqələndirmək mümkün deyil. Bundan da isti və quraq illər olub, amma belə çoxsaylı yanğınlar baş verməyib. Belə çıxır ki, dünyada olduğu kimi, bizdə də bu yanğınların çoxu hansısa qüvvə tərəfindən qəsdən törədilir. Lakin bunu araşdırıb sübut etmək çox çətindir.

Təbiətdə hər zaman yanğınlar olur. Bəzən Günəşdən gələn şüalar nəticəsində quru meşələrdə yanğınların baş verdiyi müşahidə edilir. Bəzi ağaclarda müəyyən tezalışan mayelər var ki, günəş şüalarından təsirlənərək yanğına səbəb ola bilir. Lakin Azərbaycan meşələrində həmin mayelərin olduğu ağaclar demək olar ki, yoxdur. Onlar əsasən ekvatroial və tropik ölkələrdə olur. Həmçinin hadisələrin ardıcıl şəkildə baş verməsi göstərir ki, Azərbaycanda da yanğınlar qəsdən törədilir. Bunu insanların üzərinə atmaq lazım deyil. Meşənin torpaq hissəsində kiçik ocaq qalamaqla meşə yana bilməz. İnsanlar ocağı söndürməsələr belə, o öz-özünə sönəcək. Heç kim meşəni yandırmaq istəmir, hamı ocağı tam söndürür.

Artıq dünya ictimaiyyətində belə fikir formalaşıb ki, dünya meşələrini qlobal qüvvələr yandırırlar. Bir çox ölkələrdə meşələri yandırırlar, sonra yerində palma plantasiyaları yaradılır. Qlobal palma yağı istehsalının astronomik artımına baxanda aydın olur. Bundan başqa, ağaclar 5G və elektromaqnit dalğaların udulmasına səbəb olduğu üçün özünü Vahid Dünya Hökuməti adlandıran qlobalistlərə sərf etmir. Onlar dünyanın hər yerinə bu dalğaları ötürə bilmirlər.

Bu yanğınların qarşısının tam alınması mümkün deyil. Lakin biz heç olmasa bir çoxunun qarşısını ala bilərik. Bunun üçün meşə zolaqlarında, girişlərdə nəzarətçilərin sayını artırmaq lazımdır. Kameraların sayı çoxaldılmalıdır.

Onsuz da Azərbaycanın meşə fondu 10 faizdir, yəni, çox azdır. Səhra ölkələri istisna olmaqla, biz dünyada ən az meşə fonduna sahib ölkələrdən biriyik. Ona görə də mövcud meşələri qorumaq və yeni meşə sahələri yaratmaq lazımdır.

# İsti havaların dostu: yayda hansı qidalar faydalıdır?

***Yay aylarında isti hava şəraiti və tez xarab olan qidalar səbəbindən bəzi qidaların istehlakı sağlamlıq üçün təhlükəli ola bilər. Xüsusilə qida zəhərlənmələri, mədə-bağırsaq pozuntuları və infeksiyalar bu dövrdə daha çox müşahidə olunur. SİA mövzu ilə bağlı araşdırma aparıb.***







## Yayda yeməkdən çəkinilési və ya diqqətlə istehlak edilési qidalar

*Soyuq zəncirə riayət olunmadan satılan ət və süd məhsulları*

Açıq havada, soyuducusuz şəraitdə satılan kolbasa, pendir, qaymaq, kərə yağı, toyuq və ət məhsulları tez xarab olur. Bu məhsullarda bakteriyaların çoxalması nəticəsində salmonella, listeria və digər zəhərləyici mikroorqanizmlər yaranır.

### Mayonezli salatlar (xüsusilə bayat salatlar)

Mayonez, yüksək temperaturda tez xarab olur və zəhərlənmə riskini artırır. Restoran və ya marketdən alınan hazır salatlar ehtiyatla seçilməlidir.

### Çiy və ya az bişmiş ət və balıq (suşi, ət döşəmələri və s.)

Yayda bu məhsullar bakteriyaların çoxalması üçün əlverişli mühit yaradır. Yaxşı bişirilməmiş ət və balıq qida toksinlərinə səbəb ola bilər.

### Küçə satıcılarından alınan açıq dondurmalar

Gigiyenik şəraitə əməl olunmadan hazırlanan və saxlanılan dondurmalar bakteriya daşıya bilər. Xüsusilə əl ilə paylanan dondurmalarda yoluxma riski yüksəkdir.

### Qızardılmış və çox yağlı yeməklər

Yayda orqanizm susuz qalır və ağır, yağlı yeməklər həzmi çətinləşdirir. Bu tip qidalar ürəkbulanma, halsızlıq və mədə yanmasına səbəb ola bilər.

### Köhnə, bayat şirniyyatlar və tortlar

Kremli və süd əsaslı şirniyyatlar soyuducuda saxlanmadıqda tez xarab olur. İstehlakı göbələk və bakterial infeksiyalara səbəb ola bilər.

### Qazlı və şəkərli içkilər

Bu içkilər susuzluğu keçici aradan qaldırsa da, orqanizmdən suyun daha tez çıxmasına səbəb olur. Həddindən artıq şəkərli içkilər istidə ürəkbulanma və halsızlıq yarada bilər.

### Nə etməli?

- Yeməkləri təmiz və sərin şəraitdə saxlayın.
- Ev şəraitində hazırlanmış, təzə, yüngül yeməklərə üstünlük verin.
- Açıq bazarlardan deyil, etibarlı mənbələrdən ərzaq alın.
- Su qəbulunu artırın və qazsız, şəkərsiz sərinləşdirici içkilər seçin.

Yay aylarında düzgün qidalanma orqanizmin su-duz balansını qorumaq, istilərdən yaranan halsızlıq və susuzluğun qarşısını almaq üçün çox vacibdir. Bu dövrdə yüngül, su və vitaminlərlə zəngin qidalar orqanizmi dəstəkləyir və enerjili qalmağımıza kömək edir.

*Aşağıda yayda faydalı olan əsas qida qrupları təqdim olunur:*

## Yayda faydalı olan qidalar

<u>Təzə tərəvəzlər</u>

Xiyar, pomidor, bibər, göyərti, kahı, kələm - su ilə zəngin, yüngül və antioksidant mənbəyidir. Orqanizmin təmizlənməsinə və həzmin yaxşılaşmasına kömək edir.

<u>Su ilə zəngin meyvələr</u>

Qarpız, yemiş, çiyələk, şaftalı, ərik, üzüm, alça - susuzluğu azaldır, vitamin və minerallarla zəngindir. Qarpız və yemiş xüsusilə orqanizmi sərinlədir, böyrəklərin fəaliyyətini tənzimləyir.

<u>Sərin və yüngül şorbalar</u>

Soyuq ayran aşı, tərəvəzli şorbalar, qazpaço (ispan tərəvəz şorbası) - yayda mədə üçün yüklənmədən qida verir. Eyni zamanda su balansını tənzimləyir.




<u>Süd məhsulları (soyuq və təzə halda)</u>

Ayran, kefir, qatıq - bağırsaq mikroflorasını dəstəkləyir, orqanizmi sərinləşdirir. Yay istilərində həm susuzluğu azaldır, həm də doyumludur.

<u>Yüngül və həzmə asan karbohidratlar</u>

Düyü, bulqur, qarabaşaq kimi taxıllardan hazırlanmış salatlar və ya yüngül yeməklər. Ağır yeməklərlə müqayisədə yay üçün daha uyğundur.

<u>Az yağlı protein mənbələri</u>

Qaynadılmış toyuq, balıq, yumurta, paxlalılar - enerjini təmin edir, lakin ağır hiss etdirmir. Soyuq paxla və noxud salatları da yay üçün idealdır.

<u>Təbii sərinləşdirici içkilər</u>

Limonlu su, nanəli ayran, evdə hazırlanmış kompotlar, meyvə suları (şəkərsiz) - susuzluğu aradan qaldırır və bədəni sərin saxlayır. Şəkərsiz buzlu çaylar və zəncəfilli sular da faydalıdır.

### Əlavə tövsiyələr

- Qızartmadan və çox yağlı yeməklərdən uzaq durun.
- Günün ən isti saatlarında (12:00-16:00) yüngül qidalar seçin.
- Qidaların təzə və düzgün saxlanılmasına diqqət edin - tez xarab olan məhsullardan ehtiyatlı olun.
- Bol su için - hər gün ən azı 2-2.5 litr.

***Ayşən Vəli***

ARAŞDIRMA

# İqtisadçı alim: Rusiya və Azərbaycan arasında iqtisadi dövriyyənin artması strateji əməkdaşlığın nəticəsidir

**Tanınmış iqtisadçı ekspert Mixail Belyayev Rusiya və Azərbaycan tərəflərinin iqtisadi əməkdaşlıqla bağlı bəyanatlarını "Moskva-Baku" portalına şərh edib. Ekspertin fikrini oxucularımıza təqdim edirik.**



*- Mixail Kimoviç, Rusiya və Azərbaycan tərəflərinin iqtisadi əməkdaşlıqla bağlı son bəyanatları diqqət çəkir. Belə ki, Azərbaycan prezidenti İlham Əliyev bu yaxınlarda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi mövzusuna toxunaraq, bu istiqamətdə Rusiya ilə əməkdaşlığı qeyd edib. Rusiya baş nazirinin müavini Overçuk bu yaxınlarda qeyd edib ki, Rusiya və Azərbaycan iqtisadi əlaqələri inkişaf etdirir və qoruyur. Azərbaycan Dövlət Gömrük Komitəsi ölkələr arasında ticarət dövriyyəsinin artdığını açıqlayıb. İki ölkə arasında münasibətlərdə müəyyən çətinliklər fonunda iqtisadiyyata yönəlmiş bu cür bəyanatları necə şərh edə bilərsiniz?*







- Rusiya ilə Azərbaycanın tarixən çox sıx, o cümlədən iqtisadi əlaqələri olub. Bu əlaqələrin əhəmiyyətini bugünkü rəqəmlər də təsdiqləyir. Əgər Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 2010-cu ildən 2014-cü ilədək, sonra isə 2020-ci ildən 2024-cü ilə qədər olan dövrlərdə ticarət dövriyyəsini götürsək, onda bir dördillik dövrdən digərinə 1,5 dəfə artmışdır. Bu çox şeydir. Cari ilin 5 ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 faiz artıb.

2024-cü il üçün iki ölkə arasında ticarət dövriyyəsi təxminən 5 milyard dollar təşkil edib. Bu, Rusiyanın ümumi ticarət dövriyyəsinin 0,7 faizini, Azərbaycan üçün isə ümumi ticarət dövriyyəsinin 10 faizindən çoxunu təşkil edir. Ticarətin strukturu da vacibdir. Biz Azərbaycana neft, neft məhsulları, metallar, qiymətli daşlar və s., Azərbaycan isə Rusiya Federasiyasına ilk növbədə kənd təsərrüfatı məhsullarını tədarük edir, Rusiya Türkiyə və İtaliyadan sonra Azərbaycanın qeyri-neft məhsullarının ən çox satıldığı ölkədir.

Yəni, iki ölkə iqtisadi baxımdan sıx bağlıdır. Düşünürəm ki, kimin kimə daha faydalı olduğunu müqayisə etmək həyətdə oynayan uşaqların söhbətinə bənzəyər. Biz bir-birimizə faydalıyıq. Və burada gələcəyə baxmaq lazımdır. Gələcək isə ondan ibarətdir ki, qlobal inkişaf sektoru dəyişib və Şərqə yönəlib. Deməli, bizim iki ölkəmiz qonşuluğu, coğrafiyası kimi bunu da nəzərə almalıdır. Azərbaycanın ticarət yollarının kəsişməsində yerləşməsi bu şansı artırır. Bu isə həm ölkənin özü, həm də Rusiya üçün Şimal-Cənub dəhlizi, Çindən Qərbi Avropaya uzanan dəhliz kimi mühüm layihələrdə iştirak deməkdir.

Beləliklə, Rusiya ilə Azərbaycan, qonşular arasında münasibətlərin çətin yüksəliş dövrü- bu, dövlətlərin sıx qarşılıqlı əlaqədə olduğu zaman baş verir. Çünki ölkələr arasında qarşılıqlı əlaqə nə qədər çox olarsa, təmaslar nə qədər sıx olarsa, qarşılıqlı həll üçün bir o qədər çox məsələlər yaranır. Yəni yaxın münasibətləriniz olmayanda, o zaman nəyisə həll etmək üçün heç bir səbəbiniz yoxdur.

Bu məskunlaşma bəzən daha az və ya daha çox emosional şəkildə baş verir. Və bu vəziyyətdə iqtisadiyyat və iqtisadi reallıqlar çox tez ayılır. Rusiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq istər-istəməz obyektiv şərtdir. Başa düşürəm ki, iqtisadiyyatı sevməyənlər çoxdur. Amma bütün bu "aşiq olmayanlar" çörək və yağ, kolbasa və pendir həvəskarlarına çevrilirlər. Və bu halda siz iqtisadiyyatdan uzaqlaşa bilməzsiniz. Və iqtisadiyyat diktə etməyə başlayır.

Rusiya ilə Azərbaycan arasında onilliklər ərzində yaranmış iqtisadi şəraiti, iqtisadi amilləri dəyişmək mümkün deyil. Ona görə də deyə bilərik ki, Rusiya və Azərbaycan tərəfləri verilən bəyanatlarla iqtisadi əməkdaşlıq vektorunu dəstəklədiklərini və ümumilikdə münasibətlərdəki bütün çətin məsələlərin həlli üçün gələcəyə pəncərələri açıq saxladıqlarını qeyd edirlər.

Azərbaycan tərəfinin regionda Azərbaycanın əsas hissəsini özünün Naxçıvan hissəsi ilə Ermənistan ərazisindən keçirməli olan dəhliz kimi nəqliyyat layihələrinin inkişaf etdirilməsi məsələsində Bakının qonşuları, o cümlədən Rusiya ilə münasibətləri inkişaf etdirmək niyyətində olması ilə bağlı bəyanatlarına gəlincə, burada, ümumiyyətlə, onu da deyə bilərik ki, müsbət ifadələr qorunub saxlanılır. Azərbaycan tərəfi həmçinin Zəngəzur dəhlizinin gələcəkdə Amerika şirkəti tərəfindən nəzarətə götürülməsi ilə bağlı hər hansı razılaşmanın olduğunu da təkzib edib. Yəni Bakı bölgədə bununla bağlı üçüncü qüvvələrin olmayacağını açıq şəkildə bildirdi.

Biz iqtisadçılar diplomatlardan daha çox yaxınıq. Ölkələr arasında münasibətləri həyata keçirmək, onlarda lazımi vektoru saxlamaq isə diplomatların vəzifəsidir. Həm Rusiya, həm də Azərbaycan tərəfi ikitərəfli münasibətlərlə bağlı çox ehtiyatlı bəyanatlar verir, diplomatik münasibətlər, o cümlədən "dostlar", "tərəfdaşlar", "müttəfiqlər", "qonşular" kimi ifadələr. Diplomatlar və siyasətçilər belə bəyanatlar vermirlər. Dediklərinin fərqindədirlər. Və əgər belə düsturlar varsa, deməli, münasibətlərin qurulmasında perspektiv görürlər. Rusiya ilə Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında bəyannamə bir səbəbdən imzalandı; onu imzalamazdan əvvəl tərəflər belə bir sənədin bağlanmasının zəruriliyini hesablayıblar. Belə ciddi sənədlər uzun müddət ərzində hazırlanır.

Bunun arxasında duran faktorlar isə təkcə gündəlik həyatda olduğu kimi deyil: gəlin dost olaq, bu, dövlətlərarası münasibətlərdə elə bir situasiyadır ki, bir tərəf hər şeyi hesablayıb, bütün nüansları öyrənib və bu onun üçün də faydalıdır, digər tərəf üçün də. Və bu sənədin bağlanması nəticəsində ölkələrimiz qarşılıqlı faydalı əlaqələr və inkişaf məqsədi ilə onun bəndlərini həyata keçirməyə razılaşdılar.

***Tərcümə - Elçin***



MƏTANƏT

# "Konum", "lokasiya", "location", yalnız "məkan", yox...

XXI əsr bizim müasirliyin kulminasiya nöqtəsinə çatdığımız yüzillikdir. Ta bundan müasir olmağı bəlkə də düşünə bilmərik. Bunun səbəblərindən başlıcası həyatımıza yeni texnologiyaların daxil olması və bizim üçün yaratdığı yeni imkanlardır. Məsələn, sosial şəbəkələr var ki, bildiyimizi bilirik, bilmədiyimizi isə oradan öyrənirik. İş o yerə gəlib çatıb ki, uşağından tutmuş ahıl yaşda olan insanlaradək real həyatı buraxıb bir tərəfə, qeyri-real olanı-yəni sosial həyatı qoyub onun yerinə. Bu isə hər gün daha da "müasirləşməyimizə" o qədər geniş imkanlar açıb ki, hansından danışım, bilmirəm.

Bizim də "obrazovannılar" var ki, lap əvvəllərdən öz dilimizdə danışmağı sən deyən bir o qədər sevməyib. Buna görə də sosial həyat sanki lap ürəyindən olub. Həftəbecər turşusuna bənzər olan sosial şəbəkələrdə nə dildə istəsən, o dildə videolarla qarşılaşmaq olur. Yəqin elə bunlar dil sevgisi az olan bəziləri üçün geniş imkanlar yaradır. Bu, əslində həm də özümüzü "inkişaf" etdirməyimizin göstəricisidir. Məsələn, türklər məkana "konum" deyirsə, biz buna həm "konum", həm "lokasiya", həm də "location" deyirik. Deyə bilərsiniz ki, bunun nəyi pisdir ki?.. Gör neçə dildə danışmağı bacarırıq.

Kim eşidib ki, hər hansı ünvanı nişan verən adam ona "məkan" desin. Ya zəng vurub deyəcək ki, sənə "konum" atdım, ya yazacaq ki, "lokasiya"nı, location"u göndərdim.

Ötən həftə ərzində milli mətbuatımızın 150 illiyi münasibətilə bir neçə tədbirdə iştirak etməli oldum. Başqalarını demirəm, məhz elə bu zaman şahidi oldum ki, bəzi qələm yoldaşlarım belə "məkan" sözünə endirmir. Yəni onu dilinə almağı ya özünə yaraşdırmır, ya da məkan deyəndə düşünür ki, "obrazovannı" görünmür.

Bütün sahələrdə bu, belədir. İstər müəllimi, həkimi, sürücüsü olsun, belədir. Bütün yaşlarda-istər yeniyetməsi, gənci, istərsə də yaşlısı olsun, bu, belədir. Ya konum"dur, ya "lokasiya"dır, ya da "locatoin"dur. Yalnız və yalnız "məkan" deyil.

Nə üçün? Bax bunu anlamağa çalışmaq istədim, amma hələ də anlaya bilmirəm ki, qoy görüm, bir türk "konum"a "məkan" deyər? Bir rus "lokasiya"ya "məkan" deyər? Bir ingilis "location"na "məkan" deyər?

Maraqlıdır, bəzən düşünürəm ki, bəlkə içdiyimiz sudandır? Bəlkə təmizləmə işləri aparanda "xlor"unu bir qədər çox edirlər, bu, bizə belə əks təsir göstərir? Yox, içməli suyu ki, satın alırıq. Bu su dağlardan süzülən saf sudur ey, zirzəmilərdə istehsal olunmur ki...

Bəlkə istehlak etdiyimiz ərzaqlardandır? Axı onların təhlükəsizliyi göz bəbəyi kimi qorunur aid qurumlar tərəfindən. Yox, bu fikirdə də yanıla bilərəm, onların zəhmətinə kölgə salmış olaram. Bəlkə udduğumuz havadandır? Əsla, havamıza nə olub ki?..

İnanın, adamın ağlına hər şey gəlir. Nə üçün axı, biz öz dilimizdən savayı, bütün dillərdə danışmağı bu qədər sevirik? Düşünürsən ki, bu nədirsə, hər gün istifadə etdiyimiz bir şeydir. Ki, davamlı olaraq dilimizi unutdurmaq hissi yaradır bizdə. Hər gün istifadə etdiyimiz sudur, yağdır, çörəkdir. Bəlkə bunları aid qurumlar bir laboratoriya testindən keçirələr? Bəlkə mərdimazarlar var aramızda. Yoxsa biz nə üçün "məkan"a "konum", "lokasiya", "location" deyək axı?

Vallah, kim nə deyir, desin, bu işdə bir sirr var. Biz öz dilimizdə olan sözü qoyub onu digər üç dildə ifadə ediriksə, bu, normal deyil. Normal olmayan isə anormaldır. Bunun səbəbini axtarıb tapmamağın özü də normal olmayan haldır. Belə isə, gəlin, yığışaq, məsləhət-məşvərət edək, görək nə üçün "konum", "lokasiya", "location", təkcə "məkan" yox?..

# Belə kişilər də var...

***İnsan övladı olan yerdə hər şey var, deməkdir: yaxşı da, pis də. Necə deyərlər, yaxşı onsuz da bizimdir, pislərdən danışaq ki, bəlkə onları da yaxşıya çevirə bilək.***

Beləliklə, bugünkü söhbətimiz kişi və qadının, yəni ər-arvadın, bəzən uşaqları ilə birlikdə market-bazardan alış-veriş edib qayıdarkən dəfələrlə müşahidə etdiyimiz məsələdir: qadının bir əlində ağır sellofan paket, digər əlində isə uşaq, kişi isə əli cibində. Və yaxud da zənbillər qadının əlində, kişi isə sadəcə uşağın əlindən tutub. Əsla narahat olmur ki, mənim həyat yoldaşım ağır paketləri, zənbilləri daşıyır. Onun düşüncəsinə əsasən bunları qadın daşımalıdır. Necə ki, ev işlərini qadın görür, uşağı gəzməyə aparır, tərbiyəsi ilə məşğul olur, gecə ağlayanda sakitləşdirir, yükü də o, daşımalıdır.



Bu arada qadına hörmət edən, zərifliyinə saygı ilə yanaşan, evdə bütün işləri onunla birlikdə görən, hətta uşaq gecə oyananda belə onu həyat yoldaşı ilə birlikdə sakitləşdirən kişiləri də xatırladaq ki, sonra yazını oxuyanda bizdən inciməsinlər. Bəli, çoxsaylı belə kişilər var. "Qadın nədir, ağır yük qaldırdı nədir",- deyən, həyat yoldaşı ilə market-bazara gedərkən onu ağır yükə əl atmağa əsla qoymayan, yeri gələndə uşağı da, yükü də özü daşıyan kişilər də var.




Yuxarıda da vurğuladığım kimi, yaxşı yaxşıdır, yaxşı olmayanlardan danışaq ki, bəlkə səhvlərinin nədən ibarət olduğunu dərk edib onlar da yaxşı olmağa çalışalar.



## Yükü qadın, yoxsa kişi daşımalıdır...

Dəfələrlə müşahidə etmişik ki, yükü qadına daşıtdıran kişilər var. Görmüşük ki, kişi marketdə ərzaq dolu arabanı belə qadına sürdürür. Əli cibində kassaya yaxınlaşır. Burada isə ərzaqları qadın paketlərə yığır, kişi isə yekəxana şəkildə pul kisəsini çıxarır, ödəyir, vəssalam. Yükü daşımaq isə yenə qadının üzərində qalır. Kişi əgər uşaq yanlarında olarsa, ya onu qucağına alır, ya da əlindən tutur, vəzifəsinin yalnız bundan ibarət olduğunu düşünərək.

Lakin kişi həyat yoldaşının ağır yük götürməsinə yol verməməlidir. Əksinə, uşağı qadına verib, yükü götürməlidir. Və yaxud da uşağın əlindən qadın yapışmalı, yük çox olarsa, yüngülvari olandan birini də həyat yoldaşına kömək məqsədilə götürməlidir. Belə olan hal isə, hər kəs razılaşar ki, ən doğrusudur.

Onsuz da qadınlar cəfakeşdir. Ailədə yükün ağırı həmişə onların çiynindədir. Kişilər yükün birini onlara verməsə belə, qadın həyat yoldaşına kömək etməyə can atacaq. Belə isə kişilər də canıyanan olmalı, qadının evdə gün ərzində gördüyü işləri göz önünə gətirməklə onlara saygı ilə yanaşmalıdır.

## Qadına pul verməyən kişilər...

Yükü qadına daşıtdıran kişilərdən söhbət açmışkən, qadına pul verməyən kişilərdən də danışmaq yerinə düşər. Çünki bu da qadına saygısızlığın bir tərəfidir. Bir dəfə yaxın qohumlardan bir ər-arvadla səfərə çıxmışdıq. Gördüm ki, qadın nə alırsa, ödənişi kişi edir. Bu, başadüşüləndir, bir yerdə olanda, təbii ki, kişi ödəyə bilər. Lakin elə oldu ki, kişilər çayxanada oturmalı, biz isə yenidən alış-verişə getməli olduq. Bu an qadının qəribə bir tərəddüd keçirdiyini hiss etdim. Anladım ki, pul kişinin cibində olduğu üçün qadın bu hala düşür. Belə olanda onun həyat yoldaşına dedim ki, zəhmət olmasa, yoldaşına pul ver, biz alış-verişə gedirik. Məhz mən deyəndən sonra sanki bu adama çatdı ki, doğrudan da, mənim yoldaşım pul olmadan necə alış-veriş edə bilər?..

Marketlərdə də tez-tez buna bənzər hallarla rastlaşmaq olur. Baxırsan ki, qadın nə almaq istəyirsə, həyat yoldaşından icazə alır. Çünki pul ondadır...

Bir dəfə isə elə bir hadisə ilə qarşılaşmışam ki, əsla yadımdan çıxmır. Həyətə göyərti satan gəlmişdi, qapıbir qonşunun onunla dialoqu diqqətimi cəlb etdi. Xanım deyirdi ki, sabah da gələcəksiniz, mən də göyərti almaq istəyirəm. Göyərti satan isə cavabında "sabah yox, o biri gün gələcəyəm",- dedi. Qonşu: saat neçədə gələcəksinizsə, deyin, mən də gəlib göyərti almaq istəyirəm. Göyərti satan qadın isə, nə üçün indi almırsan ki, dedi. Xanım cavab verdi ki, yox, yoldaşıma demədən ala bilmərəm.

Bu hadisə bəlkə də 10-12 il öncə olub. Lakin bu gün olubmuş kimi onu əsla unuda bilmirəm. Yəni bəzi kişilər bu qədər qəddardır? Qadınlar bu qədər hüquqsuzdur? Qadın əgər evə adi göyərti almaq üçün də həyat yoldaşından icazə almalı olursa, buna həyat demək mümkündürmü?



Əslində isə ailədə büdcə bir olmalıdır. Qadın da, kişi də gəlirini o büdcədə birləşdirməlidir. Və ay ərzində nə alınmalıdır, nə qədər pul xərclənməlidir, bunlar müəyyən edilməlidir. Qadın da, kişi də gəlirə görə hərəkət etməklə, əlavə xərclərə yol verməməlidir. Lakin bu demək deyil ki, kişilər maaşı ciblərində gəzdirsin və yaxud da evə pul qoymasınlar ki, həyat yoldaşları göyərti-çörək ala.

Eləcə də harasa səfər edəndə də, market-bazara gedəndə də kişi ilə yanaşı, qadının da pul kisəsində müəyyən qədər pul olmalıdır. Bəzən elə olur ki, yuxarıdakı hadisədə olduğu kimi, alış-veriş ayrı-ayrı istiqamətlərdə olur. Belə olan halda qadın heç nə ala bilməyəcək ki, yanında pul yoxdur.

Yəni bütün bunlar o qədər incə məsələlərdir ki, belə kişilər aradabir düşünməli və nəticə çıxarmalıdır: biz bunu düzgün edirikmi?

## Market-bazar tanımayan kişilər

Hələ market-bazar tanımayan kişilər də var. Bəs bunlardan nə üçün söhbət açmayaq? Ev işləri, uşağın bağçaya, məktəbə aparıb-gətirməsi ilə yanaşı, market-bazar işlərini də həyat yoldaşına həvalə edən kişilər var. Onlar ümumiyyətlə, bazarın, marketin yolunu bilmirlər.

Qadın səhər uşağın birini məktəbə, birini bağçaya qoyur. Tər-qanın içərisində evə qayıdır. Evi sahmana salır, yemək hazırlayır. Sonra da üz tutur bazara. Ağır yüklərlə evə qayıdır, onları yerbəyer edir. Və bir də hazırlaşıb uşaqların ardınca gedir. Kişi isə axşam işdən qayıdır, əynini dəyişir, əyləşir televizorun önündə. Qarşısına yemək, çay gəlir. Bu arada uşaqlar səs-küy salanda, "ay qız, istirahət edirəm axı, uşağın səsini kəs də",- deyir. Görəndə ki, yox, evdə narahat oldu, "yaxşı mən bir çıxım, fırlanım, gəlim",- deyir. Və gedir ya çayxanaya, ya da idmana, filana. İki-üç saatdan sonra gəlir. Bu da onun bir günlük həyatı...

Belə kişilərin ən acınacaqlı tərəfi isə olur ki, alış-verişdən xəbəri olmaya-olmaya hələ üstəlik pulun çox xərclənməsi davasını da edirlər. Qadın dillənəndə isə, "məgər bu, mənim vəzifəmdir, vəzifənin nə olduğunu niyə bilmirsən",- deyirlər...

## Qarşılıqlı hörmət uzunömürlü ailədir

Bəli, əslinə gəlincə, kişi və qadın cəmiyyətdə də, evdə də eyni hüquqlara malikdir. Onlardan heç birinin haqqı yoxdur ki, bu hüquqları nəzərə almasın. Birlikdə həyat yoluna çıxan, bir evdə yaşayan iki insan əl-ələ verib həyatı gözəl yaşamalıdır. Həyat isə o zaman gözəl olur ki, insanlar bir-birilərini anlaya, hörmət bəsləyə bilir.

Ər və arvad ən birincisi, bütün məsələlərə insani hisslərlə, yəni qarşılıqlı saygı göstərməklə yanaşmalıdır. Qarşılıqlı hörmət olmayanda, bax, yuxarıda sadaladığımın hər biri tez-tez baş verir: kişi qadına saygı ilə yanaşmır, uşağı da, yükü də ona daşıtdırır, pulu cibində saxlayıb qadını xoşagəlməz vəziyyətdə saxlayır, qadının bir dəstə göyərti belə almağa hüququ, həm də pulu olmur, evdə bütün işlər qadının üzərinə yüklənir və sair. Belə olan halda isə söz-söhbət yaranır, narazılıqlar meydana çıxır. Söz-söhbət olmaması üçün qadın susduqda isə istər-istəməz ürəyində həyat yoldaşına qarşı soyuqluq yaranır. Çünki həyat yoldaşının ona saygı duymaması onu içdən yaralayır.

Hörmətin qarşılıqlı olması isə uzunömürlü ailə deməkdir. Boşanmaların kulminasiyada olduğu bir dövrdən ötən illərə baxdıqda orada özünə "Qızıl toy", "Brilyant toy", "Gümüş toy" edən ailələri görürük. Bilirsiniz, o ailələr nə üçün belə uzunömürlü ola biliblər? Çünki saygı, hörmət olub o ailələrdə. Ər beli götürəndə, qadın dırmığı götürüb, qadın ləyəni götürəndə, kişi vedrəni götürüb, qadın yemək hazırlayanda, kişi uşağı sakitləşdirib. Kişi arvadına həmişə xərclik verib, qadın isə o xərcliyi özünə deyil, evdə bir çatışmayana xərcləyib. Bazara da bir gediblər, toya da, yasa da. Birlik olublar ki, dirrikləri də olub.



Bəs biz bu qədər gözəl ailə dəyərlərindən nə üçün pay almayaq? Ala bilərik, o zaman ki, yaxşı düşünə bilək. Beləliklə, gəlin yaxşı-yaxşı düşünək, evimizdən, ailəmizdən, bir-birimizdən hörməti, saygını əsirgəməyək ki, ömür yolu bizlər üçün xoş və yaddaqalan anlarla ötüb keçsin. Sona qalan gözəl xatirələrimiz olsun ki, həmin xatirələr dünəndən bizə qalanlar kimi, bizdən də sabaha qalsın...

***Mətanət Məmmədova***

# Cənubi Qafqazın sabitlik, təhlükəsizlik məkanına çevrilməsi əsas hədəflərdəndir



“Əgər işğal olmasaydı, azərbaycanlıların vəhşiliklə, dağıntılarla, soyqırımları ilə deportasiyası baş verməsəydi, Cənubi Qafqazda vəziyyət tamamilə başqa cür olardı. Cənubi Qafqaz iqtisadi, siyasi, nəqliyyat və hər şeydən əvvəl, enerji baxımından çoxdan inteqrasiya olunmuşdu. Hər şey yaxşı olardı, bu qədər vaxt itirilməzdi. Səbəb bizdə deyil, səbəb Sovet İttifaqı dağılandan bəri Ermənistanı idarə edən rejimlərin işğalçı xarakterindədir. Onların heç biri azərbaycanofobiyası və Azərbaycana qarşı motivi olmayan təcavüzü ilə bir-birindən xüsusilə fərqlənmirdi.” Dövlət başçısı İlham Əliyev bu günlərdə Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumundakı çıxışında onu da əlavə etdi ki, indi biz özümüzə məxsus olanı qaytarmışıq və hamı bununla barışıb, bəli, mən ciddi ziddiyyətlər görmürəm. Azərbaycanın xarici siyasəti açıq və çoxşaxəlidir. Qarşılıqlı etimad mühitinin, münasibətlərdə səmimiyyətin qorunması, ən əsası yürüdülən siyasətin gələcəyinə inam hissi dövlətimizin xarici siyasət kursunun əsas prinsipləri sırasındadır. 2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərə imza atan Azərbaycan müharibədən dərhal sonra regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərdə yeni səhifənin açılması məqsədilə qarşı tərəfə sülh təklifini etdi. Ölkəmizin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından ötən 5 ildə sülh müqaviləsinin imzalanması istiqamətində atdığı addımların davamlılığına diqqət yetirmək kifayətdir. Müxtəlif məkanlarda və tərkibdə keçirilən görüşlər sülh müqaviləsinin imzalanmasına gedən yolun yaxınlaşmasında stimulverici amilə çevrildi. Lakin bütün hallarda Azərbaycan dövlətini düşündürən, narahat edən məqam etimad mühitinin yaradılması və onun qorunmasının mümkünlüyü məsələsi oldu. Dövlət başçısı İlham Əliyev Şuşa Qlobal Media Forumundakı çıxışında son illərin reallıqları fonunda sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımlara söykənərək ”Amma erməni həmkarımla uzun diskussiya zamanı müzakirə etdiyimiz mövzulardan biri də tərəflər arasında etimadın çox aşağı səviyyədə olması idi. Bu, tamamilə başadüşüləndir” söylədi və bildirdi ki, bizə gəlincə, mövqeyimiz heç vaxt dəyişməyib. 2003-cü ildə ”Qarabağ bizim torpağımızdır!” dediyim kimi, bu 22 il ərzində də bunu demişəm və deyirəm. Amma ermənilərin mövqeyi dəyişib. Onun yenidən dəyişməyəcəyi ilə bağlı təminat varmı? Belə bir zəmanət var? Etimologiyanı, şüurun təkamülünü nəzərə alsaq, mənim belə bir təminatım yoxdur. Beynəlxalq hüququn normaları və Əbu-Dabidə dediyim kimi, separatçılığın tabutunun üzərini dəmir-betonla qapadacaq sənədlər zəmanət olmalıdır. Əgər erməni tərəfi Qarabağ münaqişəsinin bitdiyini hesab edirsə, Qarabağ münaqişəsinin həlli üçün yaradılmış Minsk qrupunu ləğv etmək lazımdır. Məntiq sadədir. Bunun üçün Ermənistan konstitusiyasına dəyişikliklər edilməlidir ki, oradan Azərbaycana qarşı ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsi çıxarılsın. Buna görə də sülh sazişinin mətni razılaşdırılıb: ”Bu sənədin paraflanması ideyası da Azərbaycan tərəfindən irəli sürülüb. Biz sadəcə olaraq, Əbu-Dabidə baş verənləri şərh etmədik. Fikirləşdik ki, kommünikenin birgə mətni üzərində razılığa gəldiyimiz üçün şərh ediləcək heç nə yoxdur. Amma erməni tərəfi həmişə olduğu kimi, öz şərhləri ilə təfərrüatları ortaya qoymağa çalışır.” Cənab İlham Əliyev həmin çıxışında bu məsələni də tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, prosesin əvvəlinə qayıtdıqda məhz Azərbaycan sülh prosesinin təşəbbüskarı olmuşdur. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Minsk qrupunun üçlüyü hələ də çalışırdı, Bakıya səfər edirdi.

Sülh müqaviləsinin imzalanmasında maraqlı olmayan və bunu atdıqları addımlarda qabarıq şəkildə nümayiş etdirən bəzi dünya gücləri hər vasitə ilə Ermənistanı yayındırmağa, müxtəlif bəhanələrlə diqqəti yayındırmağa çalışdılar. Bunun üçün sülh müqaviləsinin imzalanması məsələsi gündəmə gətirildiyi vaxtdan 2023-cü ilin sentyabrına, yəni Silahlı Qüvvələrimizin bir günlük həyata keçirdikləri antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpasına qədər olan dövrə nəzər salmaq kifayətdir. Müxtəlif məkanlarda keçirilən müxtəlif tərkibli görüşlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın beynəlxalq hüquqa söykənən 5 əsas prinsipini özündə ehtiva edən sülh müqaviləsini dəstəklədiyini bildirdiyi halda, görüşdən dərhal sonra başqa mövqe ortaya qoymağa səy göstərdi. Havadarlarının Qarabağ probleminin hələ həll edilmədiyi barədə səsləndirdikləri qeyri-ciddi fikirlər Ermənistanın bir-biri ilə ziddiyyət təşkil edən hərdən bir yanaşma nümayiş etdirməsi ilə müşayiət olunurdu. Cənab İlham Əliyev Forumdakı çıxışında da qeyd etdi ki, Ermənistanın müxtəlif şərtləri var idi və iki il ərzində heç bir irəliləyiş yox idi. Başlıca səbəb o idi ki, Ermənistan tərəfi həmin sülh sazişinin mətninə dırnaqarası ”Dağlıq Qarabağ” məsələsini daxil etmək istəyirdi: ”Biz onlara dedik ki, baxın, birincisi, ”Dağlıq Qarabağ” sizin təxəyyülünüzdə mövcuddur, bu, reallıqda mövcud deyil. Bu, Azərbaycanın bir parçasıdır və sülh müqaviləsinin mətninə daxili siyasətimizə aid olan bir məsələ daxil edilə bilməz. Bu müzakirə iki il sürdü və heç bir irəliləyiş olmadı. Bu əraziləri sentyabrda biz azad edəndən sonra, yalnız o zaman Ermənistan artıq bunun üzərində israr etmədi, çünki artıq bu mövzu bağlı idi. Yəni, nəyin üzərində israr edəcəksiniz?”

Dövlət başçısı İlham Əliyev çıxışında bildirdi ki, 2024-cü ilin yanvarında real danışıqlar başlanıldı və hazırladığımız layihənin mətni üzərində iş getdi və o mətn razılaşdırıldı. Ötən ilin fevralında müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində keçirilən prezident seçkilərində inamlı qələbədən sonra cənab İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlər Ermənistanın qeyri-konstruktiv mövqe tutduğunu bir daha sübut etdi: ”Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər” söyləyən cənab İlham Əliyev bildirdi ki, birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir: ”Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək.”

Ötən ildən etibarən ölkə Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyanın vasitəçilərin iştirakı olmadan keçirdikləri görüşlərin uğurlu nəticələri bugünkü reallıqlarımızda özünün aydın ifadəsini tapır. Sülh müqaviləsinin şərtləri Ermənistan rəhbərliyi tərəfindən qəbul olunur. Artıq bu prosesin yaxınlığındayıq. Təkcə iki şərtin-Ermənistan konstitusiyasında dəyişikliyin edilməsi və ATƏT-in Minsk qrupunun buraxılması şərtlərinin yerinə yetirilməsi qalır. Bunlar da həyata keçirildiyi təqdirdə sülh müqaviləsini imzalanması qaçılmazdır. 30 illik işğal dövründə missiyasının nədən ibarət olduğunu anlamayan ATƏT-in Minsk qrupunun tarixi Zəfərimizdən, suverenliyimizin bərpasından sonra fəaliyyətini davam etdirməsinə ehtiyacın olmadığı artıq Ermənistan tərəfində də çox yaxşı dərk edilir. Tarixi Zəfərimizdən sonra Azərbaycan Prezidenti tərəfindən səsləndirilən çağırışlar 30 illik işğal dövründə də gündəmdə saxlanılırdı. Onlardan biri təbii ki, BMT-də islahatlara böyük ehtiyacın olması, Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi idi. Dövlət başçısı İlham Əliyev ”Bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir və İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır: ”Hesab edirəm ki, bu, ədalətli olar. Çünki İkinci Dünya müharibəsindən artıq 80 ilə yaxın vaxt keçir, dünya dəyişib və bu dəyişikliklər sürətlə davam edir. Ona görə, hesab edirəm ki, bu islahatlar daha ədalətli və təhlükəsiz dünyanın yaradılmasına xidmət göstərəcəkdir” çağırışı özündə bütün məqamları ehtiva edir.”

Azərbaycan 30 il dünyadan ədalət gözlədi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Qarabağın Azərbaycan ərazisi olduğu, həmçinin erməni silahlı birləşmələrinin torpaqlarımızı qeyd-şərtsiz tərk etmələrinin vacibliyi öz əksini tapsa da bu sənədlərin icrası müşkülə çevrildi. Onu da nəzərə alaq ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü ATƏT-in keçmiş Minsk qrupunun həmsədrləri idi. 30 il ərzində işğalçının adı ilə çağırılmasının münaqişənin həllinə böyük maneə yaradacağını bildirən həmsədrlər məsələnin sülh yolu ilə nizamlanacağına əminlik yaratmağa çalışdılar. İmitasiya naminə danışıqlara dəstək olan bu dövlətlər belə yanaşmanın hansı faciələrə gətirib çıxardığının şahidinə çevrildilər. Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfəri ilə BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini təkbaşına icra etdi. Ədalət və beynəlxalq hüquq deyilən məfhumların mövcudluğunu sübut etdi. Dünyaya edilən çağırışlar uğurlu gələcəyin aydın mənzərəsini yaratdı.

Azərbaycan hər zaman dünyaya əməkdaşlıq, birlik, həmrəylik, təhlükəsizlik çağırışlarını edir. Ölkəmiz beynəlxalq aləmdə sabitləşdirici aktor kimi nüfuz qazanıb. Azərbaycan bu gün qütbləşən dünyada yeni əməkdaşlıq formatlarının yaradılmasına çağırışlar edərək dövlətlər və xalqlar arasında birliyə, həmrəyliyə nail olmağa çalışır. Cənab İlham Əliyevin çıxışlarında bu çağırış da xüsusi qeyd edilir ki, artıq münaqişə həll olunub, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalır və əbədi qalacaq. İşğala artıq son qoyaraq, sülhə daha da yaxınlaşmışıq. Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsi artıq sülhün əldə edilməsinə gətirib çıxaracaq. Biz bəlli olan təklifləri irəli sürmüşük və bütün əzab-əziyyətlərə, bütün dağıntılara baxmayaraq, yenə də hesab edirik ki, sülh müqaviləsi mütləq imzalanmalıdır. Əks təqdirdə, bizim bölgəmizdə təhlükələr daha da arta bilər. Müharibədən keçən dövr ərzində Azərbaycan öz prinsipial mövqeyini bütün məsələlərdə- həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirdi. Vasitəçilərə ehtiyacın olmadığı günümüzün reallıqlarında özünün aydın ifadəsini tapır. Bircə faktı qeyd etmək kifayətdir ki, ötən il Qazaxın dörd kəndinin heç bir vastiəçiyə ehtiyas olmadan geri qaytarılması Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən siyasətinin uğurlu nəticəsi, növbəti diplomatik uğuru oldu. Cənubi Qafqazın sabitlik, təhlükəsizlik məkanına çevrilməsi əsas hədəflərdəndir. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Tarixi Zəfərimiz, suverenliyimizin tam bərpa edilməsi artıq sülh şəraitində yaşamağımızı şərtləndirir. Beynəlxalq hüququn, ədalətin yanında olan Azərbaycanın istər 30 illik işğal, istərsə də postmünaqişə dövründə atdığı addımlar bu məqsədlərə xidmət edir. Bütün hallarda regionda dayanıqlı sülhün təmin edilməsi əsasdır. 30 il torpaqları işğal altında, bir milyondan çox soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan Azərbaycan olsa da yenə də sülh gündəliyinin müəllifi kimi Ermənistana münasibətlərdə yeni səhifənin açılması üçün sülh təklifini etdi.

Hazırkı dövr, həmçinin yeni dünya nizamının formalaşdığı bir mərhələdir. Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti ədalətli dünya nizamının formalaşmasında əhəmiyyətli rol oynayır. Qarşılıqlı etimad mühitinin yaranması üçün ölkəmizin göstərdiyi səylər, verdiyi töhfələr daim beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. III Şuşa Qlobal Media Forumunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmlənməsini şərtləndirən amillərə xüsusi diqqətin göstərilməsi, bununla bağlı çoxsaylı suallara cavab axtarılması dövlətimizin uğurlu siyasətinin, dünyaya təqdim etdiyi inkişaf modelinin göstəricisidir. Azərbaycan sülh və əməkdaşlıq gündəliyinin müəllifi olaraq daim beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirəcək, yeni körpülərin qurulmasını təmin edəcək.

***Yeganə Əliyeva***

# İnsan alveri: satan, satılan, alan

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*





***30 iyul İnsan Alverinə Qarşı Beynəlxalq Mübarizə Günü (World Day Against Trafficking in Persons) 2013-cü ildə BMT tərəfindən təsis olunub və hər il insan alverinə qarşı maarifləndirmə, insan alveri qurbanlarına dəstək və qanunsuz insan ticarəti ilə mübarizə məqsədilə qeyd olunur.***



BMT, UNODC (BMT-nin Narkotiklər və Cinayətlə Mübarizə İdarəsi) və İLO (Beynəlxalq Əmək Təşkilatı) tərəfindən təqdim olunmuş hesabatlara görə, dünyada ən azı 50 milyon insan məcburi əmək və ya məcburi evlilik kimi formalarla müasir köləlik şəraitində yaşayır. Daha dəqiq ifadə etsək, dünyada 28 milyon insan məcburi əmək vasitəsi ilə, 22 milyon insan isə məcburi evlilik vasitəsilə ilə insan alveri qurbanı olub. Ümumiyyətlə, hər il 3-4 milyon yeni insan müxtəlif formalarda alverə məruz qalır. BMT-nin Narkotiklər və Cinayətlə Mübarizə İdarəsinin 2022 hesabatına görə, qeydiyyata alınan insan alveri qurbanlarının sayı 2017-2020 dövründə 11% artıb.








Qurbanların faiz nisbətinə baxsaq görərik ki, qadınlar və qızlar 65% nisbətlə siyahıda liderdir, kişilər və oğlanlar 35%-lik paya sahibdir, 18 yaşından az olan uşaqlar isə 30% təşkil edir ki, onların da üçdə ikisi yenə qızlardır. İnsan alverinin başlıca məqsədi böyük faiz nisbəti ilə cinsi istismardır - 50%. Məcburi əmək məqsədi ilə insan alverinə məruz qalanlar 38%-dir, yerdə qalan nisbət uşaq əsgərlər, orqan ticarəti, məcburi evlilik və s.-dir.

İnsan alverinin ən çox qurbanı Asiya-Sakit okean regionundadır, təqribən 15 milyon nəfər. Afrika və ərəb ölkələri də bu baxımdan yüksək risk daşıyan regionlardır. Avropa və Şimali Amerika isə həm qurbanların, həm də istismarçıların olduğu ərazilər hesab edilir. İnsan alverindən qlobal cinayət şəbəkələrinin əldə etdiyi illik gəliri təxminən 150 milyard ABŞ dolları civarı olaraq hesablanır.

İnsan alveri üçün ən riskli zonalardan biri müharibə zonalarıdır. Silahlı münaqişələr, məcburi köçkünlük, hüquqi boşluqlar və sosial çöküş nəticəsində mülki əhali - xüsusilə qadınlar və uşaqları insan alveri üçün münbit yem edir. Çünki müharibə gedən ərazilərdə insanlar evlərini tərk etmək məcburiyyətində qalır, evləri yanan, dağılan insanlar sənədsiz qalır, buna görə də məcburiyyət və zorakılıq qarşısında müdafiəsiz olurlar. Bu dövrdə dövlət nəzarəti zəifləyir, hüquq-mühafizə orqanlarının işi iflic olur, hüquqi sistemlər demək olar ki, çökür, bütün bunlar isə gedəcək heç bir yeri olmayan ümidsiz insanların ovuna çıxan alverçilər üçün sərbəst hərəkət imkanı yaradır.

Münaqişə gedən ərazilərdə uşaqların insan alverinə cəlb edilməsi və uşaq əsgər kimi istismar edilməsi halları da olduqca çoxdur. Silahlı qruplar uşaqları zorla döyüşdürür, riskli zonalarda kuryer kimi işlədir, o cümlədən cinsi istismar məqsədilə istifadə edirlər. Münaqişə zonalarından əsir götürülmüş qızlar və qadınlar satılır, qızlar zorla evləndirilir, fahişəliyə və köləliyə məcbur edilirlər.

İnsan alverinə təkan verən əsas səbəblərdən biri də insan orqanlarının alveridir. Bu müasir dövrün ən dəhşətli və gizli qalan cinayətlərindən biridir və bu cinayət növü, xüsusilə yoxsul bölgələrdə, müharibə zonalarında və hüquqi boşluqlar olan ölkələrdə ciddi təhlükə yaradır. Bu zonalarda oğurlanan insanların həyati vacib orqanları oğurlanır, satılır. Ümumdünya Səhiyyə Təşkilatı məlumatlarına görə hər il təxminən 10.000-dən çox qeyri-qanuni orqan transplantasiyası həyata keçirilir. Dünyada qanunsuz orqan bazarının illik dövriyyəsi 1 milyard ABŞ dolları ətrafında qiymətləndirilir.

Oqran ticarətinin qurbanı çox vaxt yoxsul və savadsız insanlar olur. Onlar pul qarşılığında orqanlarını satmağa razı salınırlar, bir çox hallarda oğurlandıqları üçün buna ödənişsiz razı olmaq məcburiyyətində qalırlar. Məcburi köçkünlər, qaçqınlar sənədsiz və müdafiəsiz olduqları üçün ən asan yem hesab edilirlər.

Cənub-Şərqi Asiya-Hindistan, Pakistan, Nepal "orqan turizmi" üçün əsas hədəflərdəndir. Afrika - Sudan, Nigeriya, Misir uşaqlar və mülki şəxslərin orqanlarının oğurlanması üçün "münbit" yerlərdir. Şərqi Avropa - Moldova, Ukraynada qaçqınlardan bu istiqamətdə sui-istifadə hallarına rast gəlinir. Latın Amerikası -Braziliya, Kolumbiya isə cinayət şəbəkələrinin daim aktiv olduğu və orqan alverinin gur olduğu ərazilərdir.

İnsan alverinin qarşısının alınması üçün 2000-ci ildə imzalanmış Palermo Konvensiyası Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı BMT Konvensiyası ilk beynəlxalq müqavilədir. Palermo Konvensiyasının 3 vacib protokolu var-İnsan Alverinə qarşı Protokol, Silah qaçaqmalçılığına qarşı Protokol, Miqrantların qaçaq yollarla daşınmasına qarşı Protokol. 190-dan çox ölkə, o cümlədən Azərbaycan 2000-ci ildən etibarən konvensiyaya qoşulub və öz daxili qanunvericiliyini uyğunlaşdırıb.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
31 iyul
2025-ci il

# İnsan özünün terapevti olmalıdır?



**PSİXOLOQ AÇIQLADI**



"İnsan özünün terapevti olmalıdır? Bu sual çox maraqlı və düşüncəyə vadar edən bir yanaşmanı əhatə edir. Müasir psixologiyada "özünü dərk etmə" və "özünə yardım" anlayışları vacib yer tutur. İnsan müəyyən qədər özünün terapevti ola bilər - yəni, gündəlik həyatında öz emosiyalarını izləmək, hisslərini anlamaq, özünü sakitləşdirmək və sağaltmaq üçün bəzi üsullar öyrənə bilər. Buna özşüurluluq və öztənzimi deyirik". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib.

Psixoloq sözlərinə belə davam edib: "Amma burada önəmli bir nöqtə var: bu, professional terapiyanın yerini tuta bilməz. İnsan özünün terapevti olmaq üçün ilk növbədə özünü yaxşı tanımalıdır. Amma çox zaman problemlərin kökü şüuraltı qatlarda gizlənir və insan öz təkliyi ilə onları tam görə bilmir. Psixoloq bir güzgü kimidir - bəzən fərdin görə bilmədiyini göstərir, bəzən isə onun özünü güvənli şəkildə ifadə etməsinə kömək edir.

İnsan özünü tanımalı, emosiyalarını izləməli və özünə qarşı şəfqətli olmalıdır. Bu, psixoloji sağlamlığın əsas dayağıdır. Amma bu, professional psixoloji dəstəyin əhəmiyyətini azaltmır. Ən güclü insanlar belə bəzən bir terapevtə ehtiyac duyur. İnsan necə ki, yüngül ağrılarda evdə özünü yaxşı hiss etmək üçün addımlar ata bilər, amma ciddi problemlərdə həkimə getməsi vacibdir - psixoloji sağlamlıq da belədir. İnsan hər gün öz emosiyalarını yoxlamağı vərdiş halına gətirsə, bu psixoloji müqavimətini gücləndirə bilər. Təbii instinktlə davranmaq və ya özünü "terapiya etməyə" çalışmaq bəzən problemə daha çox zərər verə bilər. Burada psixoloqun rolu yönəltməkdir, diktə etmək deyil".

***Ayşən Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Van Dammın gəlini Bakıdan paylaşım etdi



Hollivud ulduzu Jan Klod Van Dammın gəlini, azərbaycanlı pianoçu Suada Hacızadə Bakıya gəlib. SİA xəbər verir ki, bununla bağlı Suada sosial media hesabında paylaşım edib. "Salam. Mənim adım Suadadır. Mən azərbaycanlıyam və böyük çayxoram. Xüsusilə də Xəzər dənizi mənzərəsi ilə çay içməyi çox sevirəm",- o, paylaşımda bildirib.

Qeyd edək ki, Suada 2021-ci ilin iyununda Van Dammın oğlu Kristoferlə Azərbaycanın Türkiyədəki Baş Konsulluğunda nikah masasına oturub. Cütlük hazırda ABŞ-də yaşayır.



# Astarada gəlin qayınanasını öldürüb

Astarada qətl hadisəsi törədilib. Hadisə rayonun Kakolos kəndində gecə saatlarında baş verib. Belə ki, 1970-ci il təvəllüdlü Xalidə Manafova çoxsaylı bıçaq xəsarətləri ilə qətlə yetirilib. Hadisəni törətməkdə şübhəli bilinən qadının gəlini, 2004-cü il təvəllüdlü Ruhanə İmanovanın yeri müəyyən olunaraq saxlanılıb.

Faktla bağlı Astara rayon Prokurorluğunda araşdırma aparılır. Hadisəni törətməkdə şübhəli bilinən Ruhanə İmanovanın 2 uşağı var.

# Xaricdə təhsil almış 46 nəfərin diplomu tanınmadı - SƏBƏB?

İyun ayı üzrə 613 müraciətçinin 567-si barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilmiş, 46 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Bu barədə SİA-ya Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.



Bildirilib ki, mənfi qərarla yekunlaşan müraciətlərə nümunə olaraq 16 fakt üzrə tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması, 6 dövlət nümunəli olmayan diplom, 5 təhsilalma forması, 4 tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması və əhəmiyyətli fərq (kredit sayı), 3 akkreditə olunmamış ali təhsil müəssisəsi (təhsil dövrünün bir hissəsinə münasibətdə), 3 kollec diplomu ilə bakalavriat uyğunsuzluğu, 2 ekvivalenti olmayan ixtisas, 2 akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə, 2 akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olması, 1 əhəmiyyətli fərq (kredit sayı), 1 ixtisas uyğunsuzluğu, 1 tədris yükünü mənimsəmək üçün təhsil alınan ölkənin ərazisində tələb olunan normativdən az olması və ixtisas uyğunsuzluğunu göstərmək mümkündür.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**